www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 10 iyun 2016-cı il Cümə № 126 (6447) Qiymətl 60 qəpik

**Xəbər**

## Bakıda məktəbli qızın intiharının şok təfərrüatı

yazısı səh.7-də

**Gündəm**

### Avropadan "Qarabağın açarı Rusiyadadır" bəyanatının pərdəarxası



7 bəndlik Qarabağ tənzimlənməsini hazırlayan Berlin niyə qəfildən Moskvanı "xilaskar" statusunda gördü?

yazısı səh.11-də

### MTN generalı orta əsr qaydasında mühakimə olunur

yazısı səh.7-də

### PKK Türkiyə hökuməti ilə görüş istəyir

yazısı səh.8-də

### Deputatın həbsdəki şəriki səfirliklərə məktub yolladı

yazısı səh.3-də

### Məktəblərdə 14 gün ajiotajı...

yazısı səh.4-də

### Vəkili Gülər Əhmədova ilə açacağı psixoloji mərkəzdən danışdı

yazısı səh.3-də

### Keçmiş SSRİ məkanında müxalifətçilik "ölüm ayağında"

yazısı səh.5-də

### Bu gün Fransada 15-ci Avropa çempionatı başlayır

yazısı səh.13-də

### "Samsung" Azərbaycandan niyə getdi...

yazısı səh.10-da

### Nazarbayevin kreslosunu "silkələyən əllər"

yazısı səh.9-da

**Ramazan ayının 4-cü günü**

İftar 20.27 İmsaq 03.09 (QMI)

4-cü günün duası: "İlahi, Sənin əmrini bərpa etmək üçün mənə qüvvət ver! Səni zikr və yad etməyin şirinliyini mənə dadızdır! Öz kərəminlə məni şükür etməyə hazır et! Məni Öz hifzinlə və pis işlərdən qoruyan örtüyünlə qoru! Ey, görənlərin ən Bəsirətlisi!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN.

## Rusiya bölgəyə yönəlik siyasətinə təzədən baxır

# KREML BAKININ AĞIR SEÇİMİNİ ASANLAŞDIRIR - AZƏRBAYCAN İKİQAT UDUŞDA

Putinin "Türkiyəni dəstəkləyirik" ismarışı və Ankaraya son barışıq reveranslarının pərdəarxası; iki qardaş ölkənin yəhudi dövləti ilə ittifaqına Moskvanın isti yanaşmasının səbəbi...




yazısı səh.9-da

# Banklar hərraca çıxarılan dolların hamısını alır

ABŞ-ın Federal Ehtiyat Sisteminin faizi artıracağı xəbəri dolların bahalaşması ehtimalını çoxaldır: Azərbaycan bankları nəyə hazırlaşır?

yazısı səh.12-də




### İqtisad Universitetinin rektoru 12 milyonluq xərcləmədən danışdı

yazısı səh.7-də



### Kadırovun Bakıya marağı niyə artıb-biznesmi, yoxsa...

yazısı səh.8-də



### İlhamə Quliyevanın miras qalmaqalı yenidən qızışıb

yazısı səh.3-də

Elxan Mehdiyev

YENİ MÜSAVAT
N 126 (6447) 10 iyun 2016



## İlham Əliyev Rusiyanın ədliyyə nazirini qəbul edib

**Prezident İlham Əliyev Rusiya Federasiyasının ədliyyə naziri Aleksandr Konovalovu qəbul edib. Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirilib, ölkələrimizin müxtəlif strukturları, o cümlədən hüquq-mühafizə və ədliyyə orqanları arasında əməkdaşlığın bu münasibətlərin möhkəmləndirilməsi işinə öz töhfəsini verdiyi qeyd olunub.**

Söhbət zamanı iki ölkənin ədliyyə orqanları arasında qarşılıqlı fəaliyyətin, o cümlədən insanlara hüquqi yardımın göstərilməsi sahəsində sıx əməkdaşlığın həyata keçirilməsinin əhəmiyyətindən danışılıb, Rusiya Federasiyasının ədliyyə naziri Aleksandr Konovalovun Azərbaycana səfərinin əlaqələrimizin daha da möhkəmləndirilməsi baxımından önəmi qeyd olunub.

Görüşdə əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



## Tel-Əvivdə terror aktında həlak olan qadın Azərbaycan əsillidir

**İyunun 8-də İsrailin Tel-Əviv şəhərində törədilmiş terror aktında həlak olanlardan biri - 32 yaşlı Mila Mişiyeva 25 il bundan əvvəl Bakıdan İsrailə köşübmüş. Virtualaz.org bildirir ki, məlumatı "İzRus" verib.**

Onun ailəsi - atası Vyaşeslav və anası Rita, həmçinin kiçik bacı və qardaşı Aşkelon şəhərində yaşayır. Mila özü isə son vaxtlar Rişonle-Tsionda yaşayırmış.

Mişiyeva bu gün saat 14-də Aşkelonda dəfn ediləcək. Səhər erkəndən onun valideynlərinin evinə sosial xidmət orqanlarının əməkdaşları gəlib, yardım ediblər.

## Vergi sanksiyalarının 50%-i vergi əməkdaşlarına çatacaq

**Azərbaycanda vergi ilə bağlı maliyyə sanksiyalarından əldə olunan vəsaitlərin 50%-i vergi əməkdaşlarına çatacaq. Fins.az-ın məlumatına görə, bu məsələ Vergi Məcəlləsinə gözlənilən dəyişikliklərdə nəzərdə tutulub.**

Dəyişikliyə əsasən, vergi orqanları işçilərinin sosial müdafiəsi, o cümlədən vergi orqanlarının maddi texniki bazasının möhkəmləndirilməsi, vergi sahəsində elmi-texniki potensialın artırılması məqsədi ilə vergi orqanları tərəfindən tətbiq edilən və dövlət büdcəsinə daxil olan maliyyə sanksiyaları məbləğinin 50%-i hesabına bu orqanların büdcədənkənar fondu yaradılır.

Xatırladaq ki, hazırda bu rəqəm 25%-dir.

## Gəncədə 76 yaşlı qadın özünü çaya atdı

**Gəncədə intihar hadisəsi qeydə alınıb. APA-nın verdiyi məlumata görə, hadisə Gəncəçayın Gəncə şəhəri ərazisindən keçən hissəsində qeydə alınıb. Şəhər sakini, 1940-cı il təvəllüdlü Təzəgül Xəlilova özünü çaya atıb. Qadın boğularaq ölüb.**

Onun hansı səbəbdən intihar etdiyi məlum deyil.

Faktla bağlı Gəncə Şəhər Prokurorluğunda cinayət işi açılıb, istintaq gedir.

"Qaya Mətbuat Yayımı" MMC!

- **İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Daşkəsəndə insan hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı tədbir keçirilib

**İyunun 9-da ombudsman Elmira Süleymanova Daşkəsən rayonunda olub. Bu haqda rayon icra hakimiyyətindən "Yeni Müsavat"a məlumat verilib. Məlumatda bildirilir ki, "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın icrası, təbliği və tətbiqi vəziyyətinin öyrənilməsi, həmçinin qarşıda duran vəzifələrlə bağlı Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili Elmira Süleymanovanın iştirakı ilə Daşkəsəndə tədbir keçirilib.**





Tədbiri Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev açıb. O bildirib ki, prezident İlham Əliyev tərəfindən Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı ilə əlaqədar 27 dekabr 2011-ci il tarixli 1938 nömrəli sərəncam imzalanıb.

Milli Fəaliyyət Proqramı insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması, cəmiyyətdə hüquq mədəniyyətinin inkişaf etdirilməsi, normativ-hüquqi bazanın və hüquq müdafiə sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirlərin davamlılığını təmin edir.

İH başçısı deyib ki, Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının icrası ilə əlaqədar 22 bənddən ibarət Daşkəsən rayonu üzrə Tədbirlər Planı tərtib edilərək Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı tərəfindən təsdiq olunub.

Başçı bildirib ki, tədbirlər planında nəzərdə tutulmuş tədbirlərin icrası Daşkəsən RİH Aparatının rəhbərliyi tərəfindən daimi nəzarətdə saxlanılır.

Ə.Abıyev deyib ki, rayonda insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması məqsədilə həftənin cümə günləri rayon icra hakimiyyəti başçısı, digər iş günlərində isə aparatın bütün şöbələri tərəfindən vətəndaşların qəbulu keçirilir.

Başçı çıxışında deyib ki, Daşkəsən rayonunun girəcəyində geniş, irimiqyaslı tikinti, quruculuq, abadlıq işləri aparılıb, Bayraq Meydanı yaradılıb və yeni park istirahət mərkəzi salınıb. Həmçinin qeyd edib ki, Daşkəsən şəhərində "Yeni Həyat" xeyir-şər evi tikilərək istifadəyə verilib.

Heydər Əliyev Mərkəzi, "Cümə" məscidi əsaslı təmir edilib.

Tədbirin sonunda Elmira Süleymanova bir daha tədbir iştirakçılarına insan hüquqları ilə əlaqədar Milli Fəaliyyət Proqramının bundan sonra da ardıcıl olaraq həyata keçirilməsinin vacibliyini çatdırıb və tədbiri bağlı elan edib.

Tədbirdən sonra ombudsman Elmira Süleymanova rayon ərazisində yerləşən "N" saylı hərbi hissədə əsgərlərə yaradılmış şəraitlə maraqlanıb, rayon polis şöbəsində olub.



## Vəzifəli şəxs iş yerində yandı

**Bakıda vəzifəli şəxsin xəsarət alması ilə nəticələnən bədbəxt hadisə baş verib. Lent.az-ın əldə etdiyi məlumata görə, paytaxtın Nəsimi rayonu ərazisində, Bakı Beynəlxalq Dəniz Limanında idarənin şöbə müdiri Fəxrəddin Səmədov yanıq xəsarətləri alıb. İdarənin Nəqliyyat Şöbəsinin müdiri F.Səmədov müxtəlif dərəcəli bədən xəsarətləri ilə Respublika Yanıq Mərkəzinə yerləşdirilib.**

Vəzifəli şəxsin hansı şəraitdə və hansı səbəbdən yanıq xəsarətləri alması bəlli deyil.

Faktla bağlı hüquq-mühafizə orqanları araşdırma aparır.

Qeyd edək ki, Bakı Beynəlxalq Dəniz Limanının Nəqliyyat Şöbəsi digər şöbələrdən fərqli olaraq limanın özündə yerləşir.

## Təhsil Nazirliyi "Son zəng"lə bağlı məlumat yaydı




**Hər il olduğu kimi, bu il də "Son zəng" tədbirləri məktəb rəhbərləri tərəfindən şagirdlərin təhlükəsizliyi təmin olunmaqla, bilavasitə ümumi təhsil məktəblərində təşkil ediləcək.**

Təhsil Nazirliyindən bildirilib ki, Nazirlər Kabinetinin 2014-cü il 30 oktyabr tarixli 362 nömrəli qərarı ilə "Ümumtəhsil məktəblərinin Nümunəvi Nizamnaməsi"ndə edilmiş dəyişikliyə əsasən, ümumtəhsil məktəblərində dərs məşğələləri sentyabrın 15-də başlayıb iyunun 14-də başa çatır.

2016-cı ildə ümumtəhsil məktəblərində "Son zəng" tədbirləri iyunun 14-də keçiriləcək. ("Trend")

## Məscidi yandırmaqda ittiham olunanların məhkəməsi başlayıb

**Bakının Suraxanı rayonunda «Qaraçuxur» məscidini yandırmaqda ittiham olunan Elnur Ələkbərovun apelyasiya şikayəti üzrə məhkəmə prosesi keçirilib. Virtualaz.org saytının əldə etdiyi xəbərə görə, prosesə İlqar Murquzov sədrlik edib. Prosesdə təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib. E.Ələkbərovun vəkili Namiq Hacıyevin prosesin məhkəmə istintaqı ilə aparılması barədə qaldırdığı vəsatət baxılmamış saxlanılıb.**

Məhkəmənin baxış iclası iyunun 16-na təyin edilib.

Qeyd edək ki, 2014-cü il noyabr ayının 26-da Qaraçuxur qəsəbəsində yerləşən "Cümə" məscidinə yandırıcı maye ilə doldurulmuş şüşə butılkalar atılaraq yanğın törədilib. Milli Təhlükəsizlik Nazirliyi tərəfindən keçirilmiş tədbirlər nəticəsində hadisəni törətməkdə şübhəli bilinən Namiq Nəsibov və Elnur Ələkbərov saxlanılıblar. Onlar barəsində Cinayət Məcəlləsinin 214.2.1-ci (terrorçuluq), 228.2.1-ci (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə) maddələri ilə cinayət işi başlanıb.



## "Qırmızı Xaç" Ermənistandakı azərbaycanlı qadına baş çəkdi

**Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) nümayəndələri iyunun 8-də girov düşmüş şəxsə baş çəkib. Bu haqda modern.az saytına BQXK-nın Bakı nümayəndəliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova məlumat verib.**

"İ.Hüseynova "Qətibə Ələkbərovanın geri qaytarılması üçün danışıqlar aparılırmı" sualına cavab olaraq bildirib ki, Beynəlxalq Qırmızı Xaç Komitəsi öz neytral vasitəçiliyini tərəflərin razılaşması ilə həyata keçirir. Danışıqlar yalnız tərəflər razılıq verdikdə aparılır. "Biz hansısa hadisə baş verdikdən sonra ictimaiyyətə məlumat veririk".

Qətibə Ələkbərova 7 iyunda Azərbaycan-Ermənistan sərhədini keçərək, düşmən tərəfə girov düşüb. Araşdırma nəticəsində onun Qazax rayonlararası ruhi xəstəxanasında dispanser qeydiyyatında olduğu müəyyən edilib.

## Həmsədrlər Qarabağ üçün Sankt-Peterburqa yığışacaqlar

**Rusiya xarici işlər nazirinin müavini Qriqori Karasin Fransanın Rusiyadakı səfiri Jak Riperi qəbul edib.**

Modern.az saytı Rusiya KİV-nə istinadən xəbər verir ki, görüş zamanı onlarl ATƏT-in Minsk Qrupunun fransalı həmsədri Pyer Andrie müşayiət edib.

İki ölkə nümayəndələri Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı yaxınlarda Sankt-Peterburqda keçiriləcək Rusiya, Fransa, ABŞ üçtərəfli sammitinə hazırlığı müzakirə ediblər.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

**Vəkil Adəm Məmmədovun sabiq deputat Gülər Əhmədova ilə birgə psixoloji mərkəz açacağı və bununla bağlı anons verməsi barədə yazmışdıq. "Yeni Müsavat"a açıqlamasında A.Məmmədov bu mərkəzin detalları barədə danışdı.**

# Vəkili Gülər Əhmədova ilə açacağı psixoloji mərkəzdən danışdı

## Adəm Məmmədov: "Burda etik nüanslar var, nəzərə almalıyıq"

Vəkil dedi ki, məsələ hələ ki müzakirələr səviyyəsindədir, bütün detallar, texniki məsələlər həll olunandan sonra mediaya açıqlama veriləcək. Onun sözlərinə görə, bu mərkəzdə həm psixoloq, həm də hüquqi xidmət göstəriləcək. Müsahibimiz bildirdi ki, hüquqi problemi olan insanların psixoloji basqı altında qalması, psixoloji gərginlikdən əziyyət çəkməsi faktdır və peşəsi ilə bağlı olaraq bunu daim müşahidə edib.

A.Məmmədovunn dediyinə görə, mərkəzin əsas psixoloqu Gülər Əhmədova olacaq. Amma işlərin gedişatından asılı olaraq işə başqa psixoloq və ya psixoloqlar da cəlb edilə bilər. Müsahibimizin sözlərinə görə, bu, mərkəzə müraciət edənlərin axınından asılı olacaq. Vəkil xatırlatdı ki, hazırda mərkəzlə bağlı texniki detalları yoluna qoymaqla məşğuldurlar.

**Vəkil açacağı mərkəzə G.Əhmədovanı cəlb etmə ideyasından da danışdı. Dedi ki, əsas məsələ sabiq deputatın aldığı psixoloq təhsili ilə bağlıdır:** "Bundan başqa, Gülər xanımın dünyagörüşü, məlumatlılığı, mütaliəsi də bu seçimdə mühüm rol oynayır. Hər halda, Gülər Əhmədova psixologiya üzrə elmlər namizədədir, eyni zamanda pedaqoq kimi də işləyib. BDU-da, eləcə də bir çox təhsil müəssisələrində pedaqoq fəaliyyəti olub. Bilirsiniz ki, müəllimlər həm də güclü psixoloqlardır. Bu halda isə Gülər Əhmədova bu iş üçün ikiqat - həm təhsilinə, həm də müəllim peşəsinə görə - uyğundur".





**Müsahibimizdən bir neçə gün öncə bu anonsu verməsinə baxmayaraq, G.Əhmədovanın bu barədə hər hansı açıqlama verməməsinin səbəblərini də soruşduq. Dedi ki, artıq sabiq deputat ilkin razılığını verib. Amma ideya tam reallaşan zaman bütün detallar mediaya açıqlanacaq. Müsahibimiz açılacaq psixoloji mərkəzdəki xidmətlərin məsrəfindən də danışdı:** "Uşaq Evi, Qocalar Evindən olan şəxslərə xidmətlərin çoxu pulsuz olacaq. Bundan başqa, aztəminatlı təbəqələrə, sosial ehtiyacı olan insanlara da xidmətlərimiz pulsuz olacaq. Amma bununla yanaşı, qəbul qiyməti ilə bağlı hələlik dəqiqləşmə yoxdur. Amma bütün bunlar biznes sirri sayıldığı üçün ümumiyyətlə açıqlanması da doğru deyil".

**A.Məmmədov bildirdi ki, ümumiyyətlə, psixoloji mərkəzdə çalışanlar etik normalara riayət etməlidir. Belə ki, mərkəzə gələnlərin kimliyinin gizli saxlanması ilkin şərtdir:** "Çünki cəmiyyətdə psixoloq yanına gedən şəxslərlə bağlı birmənalı fikir yoxdur. Əgər mən bu gün desəm ki, psixoloq yanına gedirəm, bunu yanlış anlayacaqlar. Halbuki gərgin iş rejimi olan insanlarda bəzi psixoloji narahatlıqların olması normaldır. İnsanın daxili rahatlığı üçün psixoloq yanına getməsi normaldır. Xaricdə hər bir ailənin personal psixoloqu da olur".

**"Yeni Müsavat" xatırladır ki, vəkil Adəm Məmmədov bir neçə gün öncə yeni yaradacağı ictimai qurumun anonsunu verib. O, bu haqda sosial şəbəkədəki statusunda yazıb. A.Məmmədovun yazdıqlarını nəzərinizə çatdırırıq:** "İnsanlar yaşadıqları həyatı qiymətləndirib, dəyərləndirə bilirlərsə biz də belə insanlara hörmət edib dəyər verməliyik. Bir müddətdir ki, artıq siyasi həyatdan uzaqlaşmış ictimaiyyətin kifayət qədər tanınan, yazılmış bir yana yazılmamış qanunlara belə münasibətdə xarakter nümayiş etdirmiş Gülər xanım Əhmədova ilə tanışlıq və işçi görüşlərin nəticəsi olaraq (Pisxoloji-hüquqi yardım) bir araya gəlib, ciddi bir ictimai qurum yaratmağı nəzərdə tuturuq. Düşünürəm ki, Gülər xanımın təcrübəsi və xarakteri, təhsili (psixologiya üzrə elmlər namizədi) bu layihənin effektli işləməsi üçün vacib şərtdir. Edilən hərəkət və hərəkətsizliyə fərqli prizmadan müxtəlif münasibətlər ola bilər. Ən əsası odur ki, çətin zamanlarda belə insan xarakterini və mövqeyini ortaya qoya bilib, yeri gələndə susmağı bacarsın...

Son dövrdə mətbuat səhifələrində Gülər xanım Əhmədovaya qarşı kampaniya şəklində bəzi xoşagəlməz, təhdid xarakterli yazılarla rastlaşıram ki, bunu yaxşı hal hesab etmirəm. Məsələnin detallarına toxunmadan həmin yazarların nəzərinə bircə faktı çatdırmaq istəyirəm ki, həyatlarında oxşar duruma düşsəydilər, dostları və düşmənləri qarşısında bu qədər mərdi-mərdanə, dik dura bilərdilərmi???"

❑ **Sevinc TELMANQIZI**

# İlhamə Quliyevanın miras qalmaqalı yenidən qızışıb

## Xalq artistinin bacısı miras razılaşmasını təkzib etdi: "Vəkil özündən şayiələr buraxmasın!"



**"Bizim nə Orxanla söhbətimiz olub, nə də onun vəkilini tanımırıq". Bu sözləri "Yeni Müsavat"a açıqlamasında mərhum xalq artisti İlhamə Quliyevanın bacısı Gülbahar Quliyeva miras məsələsində qohumların razılığa gəldiyi haqda yayılan məlumatlara münasibət bildirərkən deyib. Müğənninin bacısı Orxan Nadirovun vəkili Habil Vəliyevin şayiə yaydığını deyərək xəbərdarlıq da edib: "Orxan Nadirovun vəkili özündən söz uydurur. Bu barədə heç bir söhbət də olmayıb. Heç kəslə nə danışılıb, nə də söhbət edilib. İlhamə Quliyevanın mirası nə böyük bir şey olub ki, camaatı maraqlandırır?! Orxan Nadirovun vəkili yalandan, özündən şayiələr buraxmasın!"**

Mərhum müğənninin vəkili Elmira Məmmədova da məsələ ilə bağlı "Yeni Müsavat"a açıqlama verib. Vəkil bildirib ki, miras haqqında yayılan son məlumatlarla bağlı Orxan Nadirovla görüşüb, məsələyə aydınlıq gətirməyə çalışacaq.

Qeyd edək ki, mərhum xalq artisti İlhamə Quliyevanın oğulluğu Orxan Nadirovun vəkili Habil Əliyev modern.az saytına açıqlama verərək bildirib ki, vərəsəlik iddiasında olan digər qohumlar, o cümlədən İ.Quliyevanın bacısı Gülbahar Quliyeva birgə razılığa gəliblər:

"Mən onların ailə məsələlərinə qarışmıram. Bəzi nüanslar var ki, ailədaxili məsələ olduğu üçün onları açıqlamaq səlahiyyətində deyiləm. Xalq artistinin vərəsəlik iddiasında olan bacıları və digər qohumları var. Amma bildiyim qədəri ilə qohumlar arasında soyuq münasibətlər aradan qalxıb. Onların əksər hissəsi, o cümlədən xalaları Orxan Nadirovu dəstəkləyir və onu qəbul edirlər. Ümumiyyətlə, qohumlar Orxanı çox istəyirlər. Güman edirəm ki, yaxın müddətdə bu barədə ictimaiyyətə məlumat veriləcək".

Miras qalmaqalında daha çox cənfəşanlıq edən Əli Mirəliyevə gəldikdə, vəkil onun vərəsəliyə iddialı olmadığını, ümumiyyətlə, qanunun buna yol vermədiyini diqqətə çatdırıb.

Qeyd edək ki, 2016-cı il fevral ayının 25-də dünyasını dəyişən xalq artisti İlhamə Quliyevanın mirasına həbs qoyulub. Orxan Nadirov İlhamə Quliyevanın övladlığa götürdüyü və rəsmiləşdirmədiyi övladı olduğundan miras ətrafında qalmaqal yaşanıb.

İ.Quliyevanın vəkili Elmira Məmmədovanın mətbuata verdiyi açıqlamaya görə, xalq artistinin Mərdəkanda və Buzovna yolunun üstündə yerləşən iki bağı, 50 sot sənədli torpağı, Bakının mərkəzində 4 evi var. Bundan başqa, onun "İnfiniti" və "Luimizin" markalı 2 avtomobili, çox miqdarda da qızıl-zinət əşyaları qalıb.

❑ **Xalidə GƏRAY**

# Paşazadələrin həbsdəki şəriki səfirliklərə məktub yolladı

## "Cavansır Paşazadə və onun qardaşı Allahşükur Paşazadənin sifarişi olduğuna görə..."

**"Yeni Müsavat"ın ötən saylarında Bakı İstintaq Təcridxanasında saxlanılan Müğdət Həşimovun müraciətlərini dərc etmişdik. "Yeni Müsavat"ın 23 may sayında dərc olunan "Allahşükür Paşazadənin adı cinayət işində!!!" sərlövhəli yazıda M.Həşimovun Paşazadələrlə şərikliyindən, ona şərik olaraq verilmiş 700 min manatın müqabilində 800 min manatı qaytarmasından və həbsin sifarişli olmasından bəhs olunurdu. M.Həşimov "həbsimin səbəbkarı və sifarişçisi Milli Məclisin deputatı Cavanşir Paşazadədir" iddiasını da irəli sürmuşdü.**



M.Həşimovun yaxınları Azərbaycandakı səfirliklərə, insan haqlarını müdafiə edən təşkilatlara və xeyriyyə cəmiyyətlərinə müraciət edərək düşdüyü durumda ona və ailəsinə dəstək verilməsini istəyib. Surəti redaksiyamıza təqdim olunan müraciətdə deyilir:

"Hörmətli səfir, hörmətli insan hüquq-müdafiəçiləri, hörmətli xeyriyyə təşkilatları və xeyriyyəçi şəxslər!

Sizə Bakı İstintaq Təcridxanasında, 10 aydan çoxdur insan hüquqları pozulmuş, sifarişlə həbsə atılmış Müğdət Əhmədiyyə oğlunun yaxınları müraciət edirlər.

Onun həbsə atılmasının sifarişçisi və səbəbkarı Milli Məclisin deputatı Cavanşir Paşazadədir. Bu şəxs Seyxülislam Allahşükür Paşazadənin qardaşıdır. Sizə üz tutmağımız səbəbsiz deyil. Əlaqədar instansiyalara şikayət ərizələri göndərdiyimizə baxmayaraq, millət vəkili Cavansır Paşazadə və onun qardaşı Allahşükur Paşazadənin sifarişi olduğuna görə bürokratik cavablardan başqa heç nə görməmişik. Əslinə qalsa, bu gün zindanda aşağıda göstərdiyimiz faktlara görə Müğdət yox, Cavanşir Paşazadə olmalıdır.

**1.** Cavanşir Paşazadə qardaşımız Müğdət Həşimovun rəhbəri olduğu "Medisina MMC" ilə 9 sayli notariat kontorunda bağladığı 5 illik icarə müqaviləsinin 10 aydan sonra birtərəfli qaydada qanunsuz olaraq pozub. Buna görə cavab verməlidir

**2.** İki il yarımdı ki, Cavanşir Paşazadənin qardaşı hüquq-mühafizə orqanlarının bəzi əməkdaşları vasitəsilə təqib edir.

**3.** Qardaşımızı hüquqlarını pozub və müflis vəziyyətinə salıb.

**4.** Cavanşir Paşazadə qardası Allahşükür Paşazadənin ailə üzvləri və onun özü ilə bağladığı müqavilələri mülki müstəvidə araşdırılması əvəzinə qanunsuz şəkildə cinayət müstəvisinə sürükləyib.

**5.** Cavanşir Paşazadə bu işdə məmurları alətə çevirdiyinə görə cavab verməlidir.

Qardaşımız Müğdət Həşimov ahıl yaşında ağır xəstəliklə haqsızlığın, sifarişin, özbaşınalığın qurbanıdır. Himayəmizdə Müğdətin ağır xəstəlikdən əziyyət çəkən oğlu var. Paşazadələr qardaşımızı iki il yarimdir nə işləməyə, nə yaşamağa qoymur. Ona görə də xəstə uşağının da müalicəsini imkansızlıqdan dayandırmaq məcburiyyətində qalmışıq.

Bizim müalicəni aparmağa gücümüz çatmır. İnsan haqlarının bərpa olmasında, özbaşınalığın ifşa olmasında, ağır xəstəlikdən əziyyət çəkən, atasız qoyulan bir övladın müalicə olunmasında sizin dəstəyinizə böyük ehtiyacımız var".

❑ **E.HÜSEYNOV**



11.4. Müqavilə əlavələri və dəyişiklikləri yazışlı şəkildə tərtib olunmalı, özlərind bu müqavilənin əlavə və dəyişikliyi olduğunu əks etdirməli, tərəflərin möhürləri v saəliyyətli şəxslərin imzası ilə təsdiq olunmalıdır. Bu bənddə göstərilən qaydada tərt olunmamış müqavilənin əlavəsi hüquqi qüvvəyə malik olmur.

12. Tərəflərin Hüquqi Rekvizitləri və İmzaları

| | |
|---|---|
| Paşazadə Cavanşir Hümmət oğlu | "Media-Sina" MMC |
| Ünvan: Bakı ş, Nərimanov r, | VÖEN: 1502188651 |
| M.Nağıyev küçəsi, 1-ci döngə, ev 10. | Ünvan: Bakı ş, Nərimanov r, |
| | Azadlıq pr-ti, 146, mənzil2. |
| (imza) | (imza) |

«MEDI-SINA» Azərbaycan Respublikası Limited Liability Company Azerbaijan Republic

YENİ MÜSAVAT
N 126 (6447) 10 iyun 2016

# Məktəblərdə 14 gün ajiotajı...

**Əjdər Ağayev:** "Bu, uzatma deyil, yerdəyişmədir"
**Etibar Əliyev:** "Bu məsələ çox şişirdildi"

**Orta məktəblərdə dərs ilinin iyunun 14-dək uzadılması bir çox valideynlərin narazılığına səbəb olub. Valideynlər uşaqların artıq dərs qavraya bilmədiklərini, beyinlərinin yorulduğunu deyir. Hətta uşaqlarda kitab-dəftərə qarşı psixoloji olaraq ikrah hissinin yarandığını iddia edənlər də var.**



Şagirdlərin və müəllimlərin hazırda məktəbdə nə etdiyini öyrənmək üçün bir neçə məktəbə baş çəkdik. Məktəblərdə kifayət qədər uşaq vardı.

61 saylı məktəbdə uşaqların bəziləri məktəbli formasında deyildi. Onların məktəbli olduğunu yalnızca kürəklərindəki məktəbli çantasından bilmək olurdu. Həmin şagirdlərdən niyə məktəbli formasında olmamalarının səbəbini soruşduqda onlar belə daha rahat olduqlarını, geyimlərinə görə məktəbdə onlara irad tutulmadığını dedilər. Gördüyümüz mənzərə bir sıra məktəblərdə artıq dərs keçilmədiyini deməyə əsas verirdi.

**Bəzi məktəblərdə şagirdlər dibçəkləri, digər əşyaları sinif otaqlarından çıxarır və başqa bir yerə daşıyırdılar. Bir sözlə, müəllimlər artırılan bu 14 günü şagirdlərin bilik öyrənməsinə yox, sinifləri yığışdırmağa həsr edir. Əlində dibçək daşıyan 4-cü sinif şagirdi Elman siniflərini səliqəyə saldıqlarını deyirdi:** "Birinci dərsi keçdik, sonra da başladıq sinfimizi yığışdırmağa. Müəlliməmiz dedi ki, məktəbli paltarı geyinməsəniz də olar. Üstünüz batmasın".

9-cu sinif şagirdi olan bir şagird isə dərs saatı olmasına baxmayaraq məktəbin həyətində gəzirdi. Uşaqdan dərs zamanı çöldə niyə gəzdiyini soruşduqda o, "dərs yoxdur, elə belə oturmuşduq, mən də icazə alıb çölə çıxdım, evə gedəcəm" deyə cavab verdi.

Dərs ilinin iyunun 14-nə kimi uzadılmasını şagirdlərin əksəriyyəti müsbət qarşılamadığını bildirdi. Bəziləri isə "məktəbə gəlirik vaxtımız gedir, evdə oturub neyniyəcəyik ki, burda gəlib sinif yoldaşlarımızla oynayırıq" deyə cavab verirdilər.

**Övladını dərsdən götürməyə gələn Aynurə Əliyeva adlı valideyn uşağın artıq yorulduğunu və heç nə qavramadığını deyir:** "Uşaq evə gələn kimi əzgin halda uzanır, oynamağa belə halı qalmır. Hətta hər səhər oyadıb məktəbə gətirərkən uşaq yalvarır ki, mən artıq məktəbə getmək istəmirəm, istirahət etmək istəyirəm".

**Söhbətə qatılan digər valideyn isə uşağın məktəbinə görə istirahətə gedə bilmədiklərini dedi:** "Məncə, bu qərar yanlışdır. Məktəbin vaxtını 15 gün uzatmaq istəyirdilərsə, bunu iyuna yox, sentyabra salardılar. Dərslər sentyabrın 1-i başlayıb, mayın 31-i də yekunlaşardı. İndi hava bir az sərindir. Kim deyə bilər ki, gələn il də iyun ayı belə sərin olacaq?! İyunun 14-nə kimi uzadıblar ki, uşaq dərs oxusun. Axı oxuya bilmirlər, yorulublar".







**Müəllimlər də vəziyyətdən narazı idilər. "Adımı deməyim, sonra işimdən olaram" deyən bir müəllim də uşaqların beyinlərinin yorğun olduğunu söylədi:** "Uşaqlara dərs keçirik. Uşaq sənə qulaq asır, amma ona dediklərimiz çatmır, fikri yayınır. Çünki beyin yorulub. Biz valideynlərə tövsiyə edirik ki, uşaqları yay tətilində kursa qoymasınlar. Ən azı onlara bir ay istirahət versinlər".

Bir sözlə, baş çəkdiyimiz bir neçə məktəbdə gördüyümüz mənzərə doğrudan da uşaqların iyun ayında dərs olmasına hələ ki psixoloji cəhətdən hazır olmadıqlarını deməyə əsas verir.

**Təhsil Şurasının sədri Əjdər Ağayev bildirdi ki, artırılan iki həftənin yeri düzgün tapılmalı, sentyabrın əvvəlinə əlavə edilməlidir:** "Dərs ili iyunun 14-dək uzadılıb. Amma buna ehtiyac yox idi. Əslində təhsil müddəti uzadılmayıb. İllər önceki vəziyyətinə qayıdıb. Əvvəllər sentyabrın 1-i məktəb başlayırdı. İndi sentyabrın 15-də başlayır. 2 həftəni tədris ilinin əvvəlindən götürüb axıra artırıblar. Bu da uzatma deyil, sadəcə olaraq, yerdəyişmədir. Valideynlər də deyir ki, iyun ayı artıq uşaqların yorğun vaxtıdır, proqram da qurtarıb. Heç kəs bu iki həftənin əksinə deyil. Sadəcə olaraq, bu iki həftənin yerini düzgün tapmaq lazımdır. Dərs ilinin axırında əlavə olunan o iki həftəyə uşaqlarda psixoloji hazırlıq yoxdur. Mən də təhsil ilinin sentyabrın 1-i başlayıb mayın sonunda bitməsinin tərəfdarıyam. Sentyabrın 1-i yenidən bilik günü kimi elan edilsin. Bu uşaqların normal fəaliyyətinə təsir edəcək".

**"XXI Əsr" Təhsil Mərkəzinin rəhbəri, təhsil eksperti Etibar Əliyev isə əksini düşünür. Ekspert bildirir ki, dərs müddətinin iyunun 14-nə kimi uzadılması əslində insanlarda qorxu, ajiotaj yaratmamalı idi:** "Biz dərs müddətinin uzadılmasından özümüz qorxur, həm də uşaqları qorxuduruq. Halbuki təhsil sistemləri inkişaf etmiş ölkələrdə uşaqları məktəbə daha çox bağlamağa çalışırlar. Bizdə şagirdlərin yay tətilinin müddəti 3 aydır. Bayramları da buna əlavə etsək, ən böyük tətillər elə bizim məktəblərdədir. Dərs ilinin iyunun 14-də bitməsini çox şişirtdilər. Uşaqların 2 həftə dərsə getməsinin nə ziyanı ola bilər? Bəziləri deyirdi ki, isti olacaq, göydən od ələnəcək, uşaq məktəbə gedə bilməyəcək, yaxud bu onların psixoloji durumuna mənfi təsir göstərəcək və sairə. Bilik qazanmaq istəyi insanın psixoloji durumunu niyə pisləşdirməlidir? Bütün dünyada məktəblilər üçün yay ekskursiyaları, yay məktəbləri təşkil edirlər ki, onların tətil müddəti maraqlı keçsin. Onlar sosiallaşmadan və təhsildən kənarda qalmasınlar. Bizdə bunlar olmadığı üçün bu 2 həftə müddətindən müəllim də, şagird də, valideyn də narazıdır. Dərslikləri tətil vaxtı uşaqlardan yığırlar. Uşaqların tətil müddətində dərsləri təkrarlamaq imkanları məhdudlaşdırılır. Bu 14 gün onlar üçün zərərli deyil. Gələcəkdə dərs ili sentyabrın 1-də başlasa, dərslər mayın sonunda bitəcək. Təhsil Nazirliyi dərs müddətinin uzadılmasını şagirdlərin ziyanı üçün düşünməyib. Bu, valideynin, şagirdin, müəllimin xeyrinə edilir. Qəzetlər bu vahiməni, qorxunu aradan qaldırmaq üçün müəyyən maarifləndirmə işlərinə qoşulmalıdırlar. Əslində mən zənn edirdim ki, birinci gündən valideynlər bunu sevinclə qarşılayacaqlar ki, uşaqlar 14 gün də əlavə təhsil alır. Amma çox təəssüflər olsun ki, biz bunun əksinin şahidi olduq. Müəllimin əsas vəzifəsi tədris etdiyi fənn proqramının mənimsənilməsinə nail olmaqdır. Əgər bu baş vermirsə, dərs ilini uzatmaq gündəmdən çıxmayacaq. İqlim şəraiti ilə bağlı təşvişə düşmək də lazım deyil. Elə ölkələr var ki, havanın temperaturu 50 dərəcə isti, yaxud 20-30 dərəcə soyuq olur. Onda belə çıxır ki, həmin ölkələrdə məktəblərdə dərslər dayanmalıdır?"

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

# Telekanalların Ramazan qüsuru



**Qulu Məhərrəmli:** "Vaxtilə AzTV-də Ramazana aid verilişlər olub"



**Fazil Mustafa:** "Şükürlər olsun ki, Türkiyə kanalları var"

**Əksər müsəlman ölkələrində Ramazan ayı boyunca telekanallarda dini mövzularda maarifləndirici verilişlər verilir, imsak və iftar vaxtları göstərilir. Qonşu Türkiyə televiziyaları Ramazan ayında verdiyi dini gözəl verilişlərə görə örnək sayıla bilər. Azərbaycanda isə Ramazan ayında ANS-dən başqa heç bir kanalda imsak və iftar vaxtları da göstərilmir. Maraqlıdır, Azərbaycan kanallarında dini verilişlərin yayımlanmamasının günahkarı kimdir, QMİ, Dini Komitə, yoxsa bu, sırf telekanalların özləri ilə bağlı məsələdir?**

**Tanınmış telejurnalist Qulu Məhərrəmli** Ramazanın bütün müsəlman ölkələrində böyük coşqu ilə qeyd olunduğunu xatırlatdı: "ANS televiziyası və radiosunda bu çox yaxşı işıqlandırılır. Bu bizim televiziyaların təcrübəsində əvvəllər olub. AzTV-nin özündə də Ramazana aid verilişlər olub. Biz o vaxt səhər proqramında duaları da verirdik. Bəzən elə davranış sərgilənir ki, biz sanki oğrun-oğrun İslama qulluq edirik. Yəni insanın məsləki, əqidəsi, dinə bağlılığı var. Azərbaycan da İslam ölkəsidir və burada da bu mərasimin, Ramazan ayının işıqlandırılmasında heç bir qəbahət yoxdur. Bu, tərbiyədir, insanların şüuruna, əxlaqına, beyninə tərbiyədir. Əgər biz insanların şüuruna təsir etmək üçün yaxşı bir şey düşünüb texnologiya tapa bilmiriksə, heç olmasa hazır olan, mövcud olan bəşəri din olan İslamın gətirdiyi ideyaları təqdim edək".

**Q.Məhərrəmli dinin təbliğində ciddi problemlər olduğunu bildirdi:** "Bizdə din düzgün təbliğ olunmur. Ona görə də insanların dini bilikləri çox aşağı səviyyədə- nadanlıq, xurafat səviyyəsindədir. Ona görə də bu məsələlərlə bağlı bizim yaxşı müzakirələrimiz olmalıdır. Yəni biz İslam dini haqqında təkcə Ramazan və Qurbanda deyil, hər gün danışmalıyıq. Ramazan bayramında isə xüsusən geniş danışmalıyıq. Bizim cəmiyyətə, xüsusən də indiki mənəvi böhran zamanı insanlarda şüuraltı mənəvi bir çaşqınlıq var. Hesab edirəm ki, Allah yoluna gəlmək üçün bu bir fürsətdir, bunu normal şəkildə təqdim etmək olar və lazımdır".

**Deputat Fazil Mustafa Azərbaycanda Ramazan ayının fürsətlərindən istifadə olunmadığını dedi:** "Dini bilgisi olan insanların televiziyada insanları İslamın mahiyyəti ilə bağlı tanış etməsi, daha maraqlı proqramlarla tərtib olunması insanlarda düşüncə dəyişikliyinə səbəb ola bilər, xurafatdan, radikallıqdan uzaqlaşdıra bilər. Təəssüf ki, illərdi bu istiqamətdə addımlar atılmır. 5-6 il öncə "Xəzər", "İctimai TV"də bu istiqamətdə müəyyən addımlar var idi. Amma indi demək olar ki, bu addımlar tamamilə dayandırılıb. Bu istiqamət isə yanlış istiqamətdir. Şükürlər olsun ki, Türkiyə kanalları var. Əslində Azərbaycan İslam dəyərlərini daşıyan bir dövlət kimi özünü təqdim etməli olur. Əgər biz gerçəkdən də insanların İslam inancının çoxluqda olduğu ölkəyiksə, ən azı inanclarımıza görə müəyyən proqramların olması vacib idi. Hesab edirəm ki, Ramazan ayında insanlara verilən sağlam mesajlar insanların daha sağlam din anlayışına sahib olmasına şərait yaradar".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 126 (6447) 10 iyun 2016

# Keçmiş SSRİ məkanında müxalifətçilik "ölüm ayağında"

## Ən bərbad vəziyyət hansı respublikalardadır

**Keçmiş SSRİ məkanına aid respublikalarda müxalifətin getdikcə zəifləməsi, hətta bəzilərində artıq müxalifətçilik institutunun sıradan çıxması müşahidə edilir. Diqqət etdikdə görürük ki, bütün MDB respublikalarındakı müxalifət demək olar ki, xeyli dərəcədə bir-birinə bənzəyir.**

Bunun nə ilə bağlı olmasına gəlincə, **ADP sədri Sərdar Cəlaloğlu** hesab edir ki, keçmiş SSRİ respublikalarında demokratik qüvvələrdə aşağıya doğru bir eniş var. Bu, inkişafın özünün məntiqi ilə və dünyada gedən proseslərlə bağlıdır. Üçüncü səbəb Rusiyanın yenidən özünün əvvəlki imperiya maraqlarını ortaya qoyması, keçmiş SSRİ respublikalarındakı rejimləri möhkəmlətməsi ilə bağlıdır. Bu və digər faktorlar həmin respublikalarda demokratik qüvvələrin zəifləməsinə gətirib çıxarır.


Sərdar Cəlaloğlu

S.Cəlaloğlu qeyd etdi ki, media və bəzi siyasi şərhçilər yeri gəldi-gəlmədi tez-tez Azərbaycandakı müxalifəti qınayır, tənqid edir. Amma Rusiya və Qazaxıstan kimi iri postsovet ölkələrindəki müxalifətin vəziyyəti ilə müqayisə edəndə görərik ki, əslində Azərbaycandakı müxalifət partiyaları nisbətən yaxşı durumdadırlar, az-çox fəaliyyət göstərirlər: "Ümumiyyətlə, keçmiş SSRİ məkanında ən güclü və davamlı fəaliyyətdə olan müxalifət Azərbaycan müxalifətidir. Həmin ölkələrin bir çoxunda heç Azərbaycandakı qədər müxalifətə qarşı basqılar yoxdur. Amma onlarda müxalifət bizdəki qədər inkişaf edə bilməyib. Bu, həm bizim müxalifətin özünün tarixi varisliyi ilə bağlıdır, həm də keçmiş SSRİ dövrünün özündə də Azərbaycan xalqında Moskvaya qarşı bir müxalifətçilik ruhunun olması ilə bağlıdır. Azərbaycanda istiqlalçılıq, müstəqillik ideyası həmişə olub. Bu gün Azərbaycan müxalifətini ayaq üstə saxlayan budur".

**Keçmiş SSRİ məkanına daxil olan respublikaların hansında müxalifət olmağın nisbətən rahat olduğuna gəlincə, ADP sədri dedi ki, Pribaltika ölkələrində kifayət qədər rahat və güclü müxalifətçilik eləmək mümkündür. Moldova və Gürcüstanda müxalifətçilik fəaliyyəti müəyyən qədər asandır. Üçüncü yerdə nə qədər bizə düşmən dövlət olsa da Ermənistan gəlir:** "Ermənistanda da müxalifətin fəaliyyəti üçün müəyyən şərait var. Dördüncü yerdə Azərbaycan, Ukrayna, Rusiya gəlir. Beşinci-ən bərbad yerdə Orta Asiya respublikalarıdır. Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan və Tacikistanda müxalifətçilik yox dərəcəsindədir. Orta Asiyanın yerləşdiyi coğrafiya özü orada insanlara siyasi fəallıq yox, ətalət psixologiyası yaradır. Qədimdən belədir, orada ənənə yoxdur. Əlbəttə, iqtidardakı rejimlər də bundan istifadə edir".

❑ **Etibar SEYİDAĞA**

# İlham Əliyev Bundestaqdakı görüşlərdən imtina etdi



**Azərbaycan prezidenti İlham Əliyev Almaniya Bundestaqının iyunun 2-də qəbul etdiyi "erməni soyqırımı"nın tanınması qətnaməsinə görə bu ölkəyə səfər proqramında dəyişiklik edib.**

Virtualaz.org xəbər verir ki, Azərbaycan prezidenti səfər zamanı Bundestaqda da görüşlər keçirməliydi. Lakin İlham Əliyev bu qətnamənin qəbuluna etiraz olaraq Bundestaqdakı görüşlərini proqramdan çıxarıb. Məlumatı TRT Avaz yayıb.

Azərbaycan prezidenti habelə Almaniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun iclasını da təxirə salıb.

Xatırladaq ki, Azərbaycan prezidenti iyunun 6-da Almaniyaya səfər edib. Orada bir sıra işgüzar görüşlər keçirib və kansler Angela Merkellə görüşüb.

# "Müxalifət sosial bazası olmadığına görə mitinq keçirə bilmir"

**Siyavuş Novruzov:** "Hakimiyyət aksiyada iştirak edənlərə heç bir təzyiq etmir"



**"Azərbaycanda müxalifətin mitinq keçirməməsinin səbəbi sosial baza və elektoratlarının olmamasıdır. Ən aktiv proseslər seçki dövründə olur. Ötən seçkilərdə şahidi olduq ki, heç bir partiya 300 nəfərdən artıq adam toplaya bilmir".**

Bunu "Report"a açıqlamasında hakim Yeni Azərbaycan Partiyası (YAP) icra katibinin müavini, Milli Məclisin komitə sədri Siyavuş Novruzov deyib.

O bildirib ki, mitinq keçirilməsi üçün şəhərin mərkəzində yer ayrılır, amma müxalifət aksiya keçirə bilmir: "Mitinq keçirilməsi üçün ayrılan yer əhalinin sıx yaşadığı məkandır. Bütün bunlara baxmayaraq, mitinqdə iştirak edən olmur. Yəni sosial baza yoxdur, ona görə də müxtəlif bəhanələr gətirirlər".

**S.Novruzov qeyd edib ki, hakimiyyət aksiyada iştirak edənlərə heç bir təzyiq etmir:** "Azərbaycanda sərbəst toplaşmaq azadlığı tam təmin olunur. Müxalifətin sosial bazası olmadığına görə bu cür bəhanələr gətirirlər. Mitinq keçirmək istəyənlər Bakı Şəhər İcra Hakimiyyətinə müraciət edir. İcra hakimiyyəti də müvafiq yer ayırır. Bakı Şəhər Baş Polis İdarəsi də onların təhlükəsizliyini təmin edir".

Xatırladaq ki, iyunun 8-də Müsavat Partiyası başqanının müavini, Milli Şuranın Koordinasiya Mərkəzinin üzvü Tofiq Yaqublu "Report"a açıqlamasında hazırda Milli Şuranın və Müsavat Partiyasının gündəmində aksiyaların keçirilməsinin olmadığını deyib.

# Almaniyanın "soyqırım" qərarının daha bir səbəbi - çərkəz faktoru

## Ekspert: "Məsələ alman dövlətinin erməni "soyqırımı"nı tanıması kimi qəbul edilməməlidir"

**Almaniya Bundestaqının Türkiyənin etirazlarına baxmayaraq, erməni "soyqırımı"nı səsverməyə çıxarıb tanımasından bir həftə keçdi. Lakin buna baxmayaraq hələ də hadisə dünya ictimaiyyətinin diqqətindədir.**



Bir qrup hesab edir ki, Almaniya parlamenti uydurma "soyqırım"ı Ərdoğan hakimiyyətinin siyasətinə qarşı, onların miqrantlarla bağlı tez-tez Qərbə verdiyi mesajlara cavab olaraq tanıyıb. Digər qisim ekspertlər hesab edirlər ki, Türkiyənin ümumi olaraq regional siyasəti Avropa İttifaqının və Almaniyanın maraqlarına cavab vermədiyi üçün Ankaranı bu şəkildə cəzalandırırlar.

Lakin məsələ burasındadır ki, ötən il də uydurma "soyqırım"ın 100 illiyi ilə bağlı parlamentə bu layihə gətirildi, ancaq təxirə salındı. Almaniya "soyqırım"ın 100 illiyi ərəfəsində deyil, bir il sonra bu layihəni səsverməyə çıxararaq tanıdı.

**"Yeni Müsavat"a danışan politoloq Mübariz Əhmədoğlu bildirdi ki, indi də Almaniya parlamentinin qondarma erməni "soyqırımı"nı tam şəkildə tanıdığını söyləmək olmaz:** "Orada diqqəti çəkən məsələ qərarın adı, alman ekspertlərinin rəyidir. Layihədə erməni və digər xristian toplumlarının "soyqırımı"nın 101-ci il dönümündən söhbət gedir. Bu, çox yayğın addır. İkincisi isə çox vacib məsələ ondan ibarətdir ki, Almaniyada erməni "soyqırımı" ilə bağlı parlamentin qəbul etdiyi qərarı hökmən kansler təsdiq etməlidir. Hesab edirəm ki, bu, parlament qərarı olaraq qalacaq. Ona görə də məsələ Almaniya dövlətinin erməni "soyqırımı"nı tanıması kimi qəbul edilməməlidir".

**Ekspertə görə, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın subyektiv addımları və bunun ətrafında Türkiyə siyasətçilərinin müəyyən əndazəni aşan hərəkətləri qərarın qəbuluna səbəb olan nüanslardandır:** "Bu kimi davranışlar Almaniya siyasətçilərini Ərdoğan hökumətinə qarşı çıxardı. Ərdoğan Almaniyada tanınan bir və ya bir neçə şəxsi cəzalandırmaq istədi. Çünki onlar Almaniyadakı mətbuat azadlığından istifadə edib, öz fikirlərini bildirmək istəmişdilər. Almaniya parlamentində olan şəxslərin bir qrupu düşündü ki, əgər Ərdoğana Almaniyada Merkel və Ştanmayer səviyyəsində üstün mövqe varsa, o, bu gedişlə alman parlamentində istənilən deputatı da cəzalandıra bilər. Ona görə hesab edirəm ki, məsələdə bu faktor daha böyük rol oynadı. Almaniyanı və parlamentini antitürk, anti-Azərbaycan dövlət kimi təqdim etmək düzgün deyil. Burada bizim özümüzün də müəyyən qədər iştirakımız var".

**M.Əhmədoğlu onu da bildirdi ki, Bundestaqda qərarı qəbul edənlər çərkəzlərdir və buradan da hər şey aydın olur:** "Qanun layihəsinin əsas müəllifi olan Cem Özdəmir milliyyətcə çərkəzdir. İndi Amerikada və Ermənistanda xüsusilə Serj Sərkisyanın ətrafında olan ermənilər, Rusiyaya təzyiq məqsədi ilə çərkəz soyqırımı mövzusunu aktuallaşdırmaq istəyirlər. Bu baxımdan ermənilər Türkiyədə, ABŞ-da, o cümlədən Avropada bir qrup çərkəzi ələ alıblar ki, çərkəzlər erməni "soyqırımı" mövzusunda aktivləşməli, ermənilər də onların "soyqırımı məsələsi"ni tanımalıdırlar. Əgər Almaniyanın iştirakı ilə çərkəz soyqırımı ilə bağlı müəyyən ideyalar səslənərsə, bunun Rusiya üçün çox ciddi təsirləri olacaq".

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 126 (6447) 10 iyun 2016



# Rusiya mediasında erməni-türk döyüşü

Xalid KAZIMLI

**Ötən ayın 29-da Rusiyada fəaliyyət göstərən gazeta.ru saytında erməni-azərbaycanlı münaqişəsinə dair bir məqalə dərc edilib. Məqalənin başlığı belədir: "Qarabağ müharibəsinin yenidən qızışması Rusiya üçün böyük riskdir".**

Yazının müəllifi Nadana Fridirxssondur. Bəlkə də bu, əsl müəllifin psevdonimidir, bilmək olmaz. Ancaq məqalə ənənəvi ermənipərəst mövqedən yazılmayıb. Müəllif Azərbaycanın dövlət məmurlarının Qarabağ münaqişəsinə dair görüşlərinə, açıqlamalarına yer verib.

Rusiya mediasında belə bir yazının işıq üzü görməsi isə bu məqalədən xəbəri olan bir çox erməniləri möhkəm hiddətləndirib. Onlar yazının sonunda şərh yazmaq üçün nəzərdə tutulmuş yerdə öz çoxsaylı şərhlərini yazaraq müəllifi, saytı qınayıb, Azərbaycanı yamanlayıblar.

Belə şərhlərdən birini də Armen Danilyan adlı şəxs yazıb. Yazının özündən də çox məhz həmin şərh maraqlıdır. Çünki bunu hazırkı erməni düşüncəsinin məhsulu hesab etmək olar.

Danilyanın şərhi belədir:

"Çox həyasız məqalədir. O dəqiqə bilinir ki, bunu türk yazıb. Rusların borcu həmişə və hər yerdə erməniləri müdafiə etməkdir. Ona görə ki, biz ermənilər ruslara mədəniyyət vermişik, müəyyən tarix vermişik, nəhayət, xristianlığı vermişik. Rusiya son həddə olanda biz ermənilər rusları darmadağın olunmaqdan xilas etmişik. Bizim generallar almanların qabağından qaçan rusları dayandırıb və öz arxalarınca döyüşə aparıb. Ruslar bütün bunlara görə bizə 1000 il də əvəz ödəyib çatdıra bilməzlər. Ona görə də onlar bizi həmişə müdafiə etməlidirlər, pul yardımı göstərməlidirlər, unutqan İvan olmamalıdırlar!!! O zaman başqa xalqlar da rusları qeyri-mədəni barbar xalq saymağı dayandıracaq, mədəni xalq saymağa başlayacaqlar".

Əslində bu şərhi erməni ad-soyadından istifadə olunmaqla həyata keçirilmiş təxribat kimi də qələmə vermək olar. Çünki ağıllı adam belə şərh yazmaz. Ancaq bilənlər bilir ki, Qarabağda baş verən və ermənilərin zərbə alması ilə nəticələnmiş 2-5 aprel döyüşlərindən sonra yüz minlərlə erməni məhz bu cür düşünür. Ermənistan mediasında vaxtaşırı bənzər məzmunda yazılar dərc olunur, ayrı-ayrı tanınmış şəxslər Rusiyanın siyasətindən narazılıqlarını bir az ütülü şəkildə də olsa, dilə gətirirlər.

Bəli, gerçəkdən də ermənilər düşünürlər ki, ruslara böyük yaxşılıqlar edib, əvəzsiz xidmətlər göstəriblər, indi də bu millətin borcu onları, bu "fərasətli, döyüşkən, mədəni ermənilər"i qorumaq, loru ifadə ilə desək, onları saxlamaqdır.

Bu ilin aprel ayının ortalarında ermənilərin rus ictimaiyyətinə göstərdikləri kəskin reaksiyaya görə rus jurnalistlərdən biri məqalə dərc etdirmiş, ermənilərin bitib-tükənməz iddialarına, kaprizlərinə, özlərini "ərköyün sonbeşik" kimi aparmalarına dair fikirlərini açıqlamışdı. Həmin müəllif qeyd edirdi ki, ermənilər öz qonşuları ilə problemsiz yaşamağı öyrənmək əvəzinə Rusiyanı onlarla düşmən etmək, öz yerlərinə rusları döyüşdürmək istəyir.

Bu, bir gerçəklikdir. Doğrudan da ermənilərin belə bir niyyəti var və onların bu düşüncəsi Kremlin erməni xalqına daima üzgörənlik etməsinin nəticəsidir.

Əslində rus ictimaiyyəti Qafqaz və Orta Asiya xalqlarına münasibətdə elə də ciddi ayrı-seçkilik etmir, onların hamısını eyni gözdə görür, bəzən şovinizmə qapılıb "qara millət" adlandırır, ancaq bu "qara"ları ziyansız sayır, onlarla dinc, yanaşı yaşamağın mümkünlüyünə inanır.

Ancaq Rusiyanı idarə edənlər üçün keçmiş SSRİ məkanına daxil olan "qara" millətlərin hamısı eyni deyil, ermənilərə münasibət bir qədər fərqlidir, o, "strateji müttəfiqdir".

Budur, bu da Rusiya siyasilərinin yeritdiyi həmin "ögey" və "doğma"lar siyasətinə ermənilərin təpkisi.

Onu da qeyd edək ki, Rusiya mediasında çıxan bu sayaq yazıların altına bizimkilər də şərhlər yazırlar. O şərhlərin içində savadlısı, qəzəblisi, mədənisi və söyüşlüsü olur. Şərh yazanda çalışmaq lazımdır ki, savadlı və mədəni yazaq, Armen Danilyan kimi psixopatlığa, özünüböyütmə maniyasına mübtəla olmuş adamlar kimi şərhlər yazmayaq. Bunun faydasından çox zərəri ola bilər.



# Müxalifətin Əli İnsanov təlaşı

**Həbsdə olan sabiq səhiyyə naziri Əli İnsanovun azadlığa çıxmasına 4 ay qalır. Həmin müddət yaxınlaşdıqca keçmiş nazirin ətrafında siyasi müzakirələr də qızışır. Əksəriyyət o, azadlığa çıxdıqdan sonra Azərbaycanda siyasətin rəngarəng olacağını düşünür.**

İnsanov böyük ehtimalla, məhbəs həyatından sonra aktiv siyasətlə məşğul olacaq. Onu bu addımı atmağa həm də bəzi məqamlar vadar edir: 11 ildir həbsdə yatan sabiq nazirin hakimiyyətlə çəkməli olduğu hesablar var. Üstəlik, qərbi azərbaycanlılar arasında hazırda onun qədər nüfuzu olan ikinci siyasət adamı yoxdur. Bu baxımdan İnsanovun azadlığa çıxması ölkə iqtidarına ciddi başağrısı da ola bilər.

Maraqlıdır ki, müxalifətə də onun azadlığa çıxması əslində sərf etmir. Belə ki, on illərdir siyasətlə məşğul olanlar İnsanovun kölgəsində qalacaqlarından ehtiyatlanır. İnsanovun hazırda ölkənin ana müxalifət partiyalarından sayılan Müsavat və AXCP-yə üz tutmayacağı isə indidən bəllidir. Onun xarakteri buna imkan vermir, yəni kiminsə bayrağı altına keçməyəcəyi məlumdur. 11 il həbsdə qalan eks-nazirə müxalifət daxilində ciddi rəğbət də var. Bunu da müxalifət liderləri bilməmiş deyillər. Onlar fərqindədirlər ki, İnsanov müxalif qurumların daxilindən də ətrafına tərəfdarlar toplaya bilər. Bu isə onsuz da böhran yaşayan siyasi qurumların daha da zəifləmələrinə səbəb olar.

**Ümid Partiyasının sədri İqbal Ağazadə bildirdi ki, arzularının reallaşması üçün kiminsə həbsdə qalmasına razı deyil:** "Həbsdə olan hər kəsin Allah qapısını açsın. Məhbus olan bir kəs barəsində arzularım reallaşsın deyə, kimsə həbsdə qalsın kimi niyyətim yoxdur. Düşünürəm ki, hər siyasi liderin və partiyanın baxış və düşüncələrinə, proseslərə yanaşmalarına görə elektoratları var. Heç kim digərinin elektoratına sahib çıxmır. Bu məsələdə də Ümid Partiyası olaraq bizi narahat edən heç bir məqam yoxdur".

**KXCP sədri Mirmahmud Mirəlioğlu sabiq nazirin azadlığa çıxmaq haqlarının olduğunu söylədi:** "Həbsdə olan birisinin azadlığa çıxmasını ağlı başında olan, insafı, vicdanı olan hər kəs arzulayar. Kimsənin ailəsindən, dostlarından ayrı düşməsi yalnız nadan, qərəzli insanların marağında ola bilər. O cümlədən Əli İnsanovun azadlığa çıxması onun doğal haqqıdır. Allahdan arzu edirik ki, hər kəs azad olunsun. O ki qaldı kiminsə başqalarının yerini dar etməyinə, bizim burada elə bir əndişəmiz, narahatçılığımız yoxdur. Yalnız ağıldan kəmlər bu cür düşünə bilərlər ki, filankəs azadlığa çıxacaq, meydanımı dar edəcək. Azərbaycanda siyasi fəaliyyət göstərməyə o qədər geniş meydan var ki, burada minlərlə adam yerləşə bilər. Sadəcə, cəsarət istəyir ki, bu şəxslər siyasi fəaliyyətlə məşğul olsunlar. Belə demək mümkündürsə, könlü dar olanların, naqis düşüncəli şəxslərin uydurması ola bilər. Allah onun qapısını açıq eləsin, hər kəs azadlığına qovuşsun, hər kəs də istək və arzularına çatsın. Burada, açığı, qeyri-adi heç nə gözləmirəm. Əli İnsanov da Azərbaycan vətəndaşıdır. Bəlkə kimsə narahatdır ki, o azadlığa çıxdıqdan sonra ümumiyyətlə, heç bir siyasi fəaliyyətlə məşğul olmayacaq. Yaxud elə bir siyasi fəaliyyətlə məşğul olacaq ki, hamı ona əhsən deyəcək".

**ADP sədri Sərdar Cəlaloğlu da narahatçılığa heç bir əsasın olmadığını bildirdi:** "İnsanov Azərbaycan müxalifətinin təmsilçisi deyil. O, iqtidarın təmsilçisi olub və iqtidardaxili intriqalara görə həbs olunub. Onun demokratik müxalifətçilik təcrübəsi yoxdur ki, bundan istifadə edib, digər demokratik qurumlardan önə çıxsın. Açığı, onun liderliyini qəbul edib, ətrafında birləşəcək qüvvələr də yoxdur. Bu baxımdan o ideyaların haradan çıxdığı bəlli deyil. O, azadlığa çıxıb müxalifyönlü şəxsləri ətrafına toplaya bilər. Bu zaman hansı nəticələr qazanacağını gələcək göstərər. Onun azadlığa çıxmasında nə müxalifətin narahatçılığını başa düşürəm, nə də belə bir fakt var. O çıxarsa, qorxarıq kimi düşüncələrimiz yoxdur. Qərbi azərbaycanlılar Etibar Məmmədovun simasında bir neçə dəfə AMİP və digər güclü qurumlar yaradıblar. Özlərinin siyasi güclərini, potensiallarını realizə ediblər. Bundan sonra onların simasında hansısa güclü bir siyasi qurumun yaranması mümkün deyil. Bundan sonra nə partiya yaranacaqsa, güclənəcəksə, o, ümumi Azərbaycan partiyası olacaq. Çünki son 30 ildə qərbi Azərbaycan dediyiniz elektorat mahiyyətini dəyişib. Belə ki, özlərini qərbi azərbaycanlılar sayan böyük bir kəsim dünyasını dəyişib. Yerdə qalanlar isə Azərbaycanda doğulublar, buranın adət-ənənəsi ilə böyüyüblər. Qərbi Azərbaycanda doğulan ən kiçik şəxsin artıq 30 yaşı var. Bu baxımdan deyilən variantlar yoxdur. Sadəcə, İnsanov hansı siyasi şüarı verəcəksə, ona uyğun da ətrafında müxalif kəsim toplana bilər. İdeologiyamız ortadadır. Kim müdafiə edəcəksə, onlar artıq bizimlədir. Başqa xətt tutanlar başqa şəxsləri də cəlb edəcəklər. Bizim elektorata şərik çıxa bilməyəcəklər".

**"AĞ blok"un lideri Tural Abbaslı sabiq nazirin həbsdə göstərdiyi dirənişin və uzunmüddətli həbsdə qalmasının xalq arasında nüfuzuna ciddi təsir etdiyini qeyd etdi:** "Onun həbsdə olduğu son 11 ildə müxalifət mövqelərini itirə-itirə gəlib, siyasi proseslərə təsir etmək gücündə deyil. Bunların fonunda hakimiyyətin içərisində olmuş, həbsdə kəskin mübarizə apararaq, sınmayan bir şəxs maraqla izlənilir. Onun bəlli bir regionun ağsaqqalı kimin qəbul olunması məsələsi də var. Bu amil avtomatik elektoratın olmasına səbəbdir. Onun hakimiyyət daxilində də nüfuzu var. İqtidarın ondan çəkinməsinin əsasları da var. Bu baxımdan anlamaq olur. Amma siyasi çevrəni dəyişəcək, bataqlıdan çıxaracaq gücdə olan birisinin meydana çıxmasında müxalifət maraqlı olmalıdır. Çünki xalqın istəklərini yerinə yetirə bilmirlər. İnsanov bunları edəcəksə, müxalifət buna sevinməlidir. Hakimiyyətin göstərdiyi münasibət haqqıdır. Şəxsən onun azadlığa çıxmasının və proseslərə qoşulmasının tərəfdarıyam. Rəqibə qarşı yeni cəbhənin açılmasının ziyanı yoxdur".

❑ Cavanşir ABBASLI



**İqbal Ağazadə:** "Bizi narahat edən məqam yoxdur"



**Mirmahmud Mirəlioğlu:** "Bəlkə elə bir fəaliyyətlə məşğul olacaq ki, hamı ona əhsən deyəcək"



**Sərdar Cəlaloğlu:** "Bizim elektorata şərik çıxa bilməyəcək"

YENİ MÜSAVAT
N 126 (6447) 10 iyun 2016

# MTN generalı orta əsr qaydasında mühakimə olunur

## Vüqar Xasayev: "Vəli Əsgərov ittihamları rədd edir"

**Xəbər verdiyimiz kimi, Naxçıvan Muxtar Respublikasının həbsdə olan sabiq milli təhlükəsizlik naziri, general-leytenant Vəli Əsgərovun işi üzrə Naxçıvan Hərbi Məhkəməsində hazırlıq iclası keçirilib.**

İclasa əli qandallı gətirilən V.Əsgərovun vəkillərinə onunla normal ünsiyyət qurmağa imkan verilməyib. Vəkillərə orta əsrlərə xas qaydalar tətbiq olunub.

Bu haqda "Yeni Müsavat"a açıqlama verən V.Əsgərovun **vəkili Vüqar Xasayev** deyib ki, hazırlıq iclasına Naxçıvan Hərbi Məhkəməsinin sədri Qasım Əliyev sədrlik edib: "Naxçıvan Prokurorluğunda olduğu kimi Naxçıvan Hərbi Məhkəməsində də vəsatətlərimizi təmin etmədilər. Cinayət işinin materiallarındakı sənədlərin surətini bizə vermədilər. Biz iyunun 7-də rəsmi müraciət etmişdik ki, müdafiəni qurmaq üçün həmin sənədlərin surətini versinlər. Çox təəssüf ki, vəsatətimiz heç bir əsas gətirilmədən təmin olunmadı".

**Vəkil hazırlıq iclasında məhkəmənin qapalı keçirilməsi haqda qərar çıxarıldığını bildirdi:** "Guya işdə ailə-məişət sirri var. Bunu əsas gətirib məhkəmənin qapalı keçirilməsi haqda qərar qəbul etdilər. Əslində orada bir sirr yoxdur. Məhkəmənin qapalı keçirilməsi proses zamanı üzə çıxacaq məlumatları ictimaiyyətdən gizlətməyə xidmət edir. Əgər ailə-məişət sirrinin yayılmasından bu qədər narahatlıq varsa, prosesi həmin hissədə qapalı keçirə bilərdilər. Söhbət özlərinin istəmədikləri məlumatların ictimaiyyətdən gizlədilməsindən gedir".

**V.Xasayev deyir ki, Naxçıvan Hərbi Məhkəməsində müdafiə tərəfinə orta əsr qaydasında işlə tanış olmasını təklif ediblər:** "Dedilər ki, işlə ancaq əllə qeydlər götürmək şərti ilə tanış ola bilərsiniz. Yəni bizə sənədlərin surətini çıxarmağa imkan vermirlər. Sanki 17-18-ci



əsrdir. Bizi orta əsrlər qaydasında işlə tanış olmaq məcburiyyəti ilə üz-üzə qoydular. 3 cildlik işdir. Bu qeyri-mümkün məsələdir ki, biz işlə tanış olub qeydlərimizi götürək, sənədlərdə yazılanları bizə lazım olan hissələrdə köçürək. Bizim Vəli Əsgərovun müdafiəsini tam qurmaq üçün imkanlarımız son dərəcə məhdudlaşdırılıb".

**V.Xasayev V.Əsgərovla görüşdüyünü söyləyib:** "Onu məhkəmə zalına əli qandallı gətirib dəmir qəfəsə salmışdılar. Həmin qəfəsdə onunla danışa bildik. Bizimlə məhkəmə iclas salonunda görüşə bildi. Hazırda ona işgəncə vermirlər. Belə başa düşdüm ki, istintaqın gedişi kimi məhkəməni də tələm-tələsik keçirib hökm çıxarmağa hazırlaşırlar".

**V.Xasayev bildirib ki, V.Əsgərovla həbsinin səbəbləri haqda söhbətləşməyə imkanı olmayıb:** "Konkret söhbət edə bilmədim. Özü də bu haqda nəsə demədi".

**Vəkil cinayət işinin materiallarında ailəsindən boşanmış bir şəxs haqda məlumatlar olduğunu deyib:** "Həmin şəxs ailəsindən boşanıb. Guya həmin adamın dinlənilməsi həyata keçirilib. Həmin məsələ ilə bağlı ittiham veriblər. Amma ortada konkret fakt yoxdur. İttiham aktında rəhbər şəxslərdən kimsənin dinlənilməsi haqda məlumatlar yoxdur. Çünki Vəli Əsgərov ifadə verməyib. İstintaq orqanı onu ifadə vermək hüququndan məhrum edib. Götürüb yazıblar ki, Vəli Əsgərov ittihamı qəbul edir. Əslində isə Vəli Əsgərovun elə bir ifadəsi yoxdur. O, ittihamları rədd edir, qəbul etmir və Naxçıvan prokuroruna, istintaq qrupunun rəhbərinə etirazını bildirib. Qeyd edib ki, etiraz təmin ediləndən sonra geniş ifadə verəcək. Amma Vəli Əsgərovdan ifadə alan olmadı. Əvəzində Vəli Əsgərova qarşı zorakılıq etdilər".

**Vəkil V.Əsgərovun məhkəmədə geniş ifadə verməyə hazırlaşdığını da açıqlayıb:** "Vəli Əsgərov bildiklərini deməyə hazırdır. Məhkəmə ona fikirlərini söyləməyə şərait yaratmalıdır".

İş üzrə proses iyunun 13-də, 10:00-da keçiriləcək.

Qeyd edək ki, sabiq nazirin vəkilləri Eldar Mahmudov vəzifədə olarkən Vəli Əsgərova Naxçıvan Ali Məclisinin sədri Vasif Talıbovu və ailə üzvlərini dinləməsi tapşırığını verdiyini, lakin sabiq nazirin tapşırığa əməl etmədiyini açıqlayıblar. Deyiblər ki, V.Əsgərov tapşırığın icrasından imtina edəndən sonra Eldar Mahmudov onun barəsində kompromat material yığmağa başlayıb. Guya Vəli Əsgərov Bakıya vəzifəyə gəlmək istəyir. Bu səpkili dezinformasiyanı Vasif Talıbova ötürüb. Bundan sonra Vəli Əsgərovun başına bu oyunlar gəlib. Vəli Ələsgərov 15 il Naxçıvanın milli təhlükəsizlik naziri olub. Həbsindən bir neçə ay əvvəl general-leytenant rütbəsi verilib. Eldar Mahmudov milli təhlükəsizlik naziri postundan çıxarılandan sonra onun postuna V.Əsgərovun namizədliyi müzakirə olunub. Vəkilləri bildiriblər ki, onun barəsində çirkin kampaniya bundan sonra başlanıb, özünü həbs edib yaxınlarının əmlaklarını əllərindən alıblar, 50-yə yaxın qohumu işdən qovulub.

V.Əsgərovun nazirliyi dövründə Naxçıvan MTN öndə gedən repressiv orqan kimi ad çıxarıb, orada ictimai fəallar, jurnalistlərə qarşı zorakılıqlara yol verilib, şantaj olunub, Naxçıvan sakinlərinin bir neçəsi qurumdakı dəhşətli işgəncələrin sonucu olaraq dünyalarını dəyişiblər.

Xatırladaq ki, V.Əsgərov Cinayət Məcəlləsinin 179.3.2-ci - mənimsəmə və ya israf etmə, külli miqdarda törədildikdə, 308.1-ci - vəzifə səlahiyyətlərindən sui-istifadə və 309.1-ci vəzifə səlahiyyətlərini aşma maddələri ilə ittiham olunub. Bir neçə gün əvvəl isə bu maddələrlə yanaşı, V.Əsgərova telefon danışıqlarını qanunsuz dinləməyə görə CM-in 302.2 - əməliyyat-axtarış fəaliyyəti haqda qanunvericiliyi pozma maddəsi ilə də ittiham elan edilib.

❑ E.MƏMMƏDƏLİYEV



# İqtisad Universitetinin rektoru 12 milyonluq xərcləmədən danışdı

## Ədalət Muradov: "Bizə bir qəpik də dövlətdən pul ayrılmayıb"

**İyunun 6-da bizimyol.info saytında "Təhsil müəssisələri bahalı alış-verişdən əl çəkmir" başlıqlı araşdırma yazısında bəzi universitetlərin fantastik rəqəmlərlə ifadə olunan satınalma planları haqqında məlumatlar gedib.**

Yazıda qeyd olunur ki, ADİU-da bu ilin satınalma planı da yetərincə mübahisəlidir: "Əvvəla, məbləğ daha öncə xərclənənlərin xeyli üstündədir, ikincisi də xərc istiqamətləri dəyişməyib, eyni sahələrə təkrar-təkrar pullar yönəldilib.

Abadlaşdırma xidmətləri haqqının ödənilməsi xərc maddəsindən 5 990 000 manat sosial-mədəni və məişət təyinatlı obyektlərin əsaslı təmiri, 1 980 000 manat digər maşın və avadanlıqlar, 1 480 000 manat inventarın alınması, 700 min manat abadlaşdırma xidmətləri haqqının ödənilməsi, 560 min manat cari təmir, 460 min manat avadanlığın alınması, 298 min manat idarənin xərcləri, 265 500 manat digər alışlar və xidmətlər, 255 min manat istehsalda istifadə olunmayan qeyri-maddi aktivlər, 170 min manat dəftərxana və təsərrüfat xərcləri, 106 min manat yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin alınmasına yönəldilib. Ümumilikdə 12 264 500 manatı 11 tenderdə xərcləmək nəzərdə tutulub".

Yazıda qeyd edilir ki, eyni xərclər ötən ilin satınalma planında da var və bu il, sadəcə, olaraq həmin xərclər ikiyə vurularaq hesablanıb.

**"Yeni Müsavat"a açıqlamasında İqtisad Universitetinin rektoru Ədalət Muradov bildirdi ki, rəhbərlik etdiyi təhsil ocağının heç vaxt 12 milyonluq xərcləmələri olmayıb:** "Bizə bir qəpik də dövlətdən pul ayrılmayıb. Universitetin bütün xərclərini pullu təhsil alan tələbələrin ödənişləri hesabına ödəyirik. Üstəgəl, bizim heç vaxt 12 milyonluq xərclərimiz olmayıb. Bizim, ümumiyyətlə, tikinti işimiz olmayıb. Bu məlumatı da mən indi sizdən eşidirəm. Hansı mətbuat orqanında gedib ki? Görünür, həmin jurnalistlərin fantaziyası həddindən artıq güclüdür. 12 milyona yeni korpus tikilə bilər. İnşallah, biz yeni korpus tikəcəyik. Ancaq dövlətdən bir qəpik də almayacağıq. Bizim hazırda heç cari təmirimiz də yoxdur. Özünüz gəlib baxa bilərsiniz. 12 milyon manat söhbəti ümumiyyətlə yoxdur. Mən bunu yüz faiz məsuliyyətimlə deyirəm. Mənim xəbərim olmadan, mənim imzam olmadan bir qəpik də pul xərclənə, heç bir satınalma həyata keçirilə bilməz".

**Universitetə dövlət büdcəsindən ayrılan vəsaitlərə gəlincə, rektor bildirdi ki, dövlət yalnız ödənişsiz əsaslarla təhsil alan tələbələrin təhsil haqqını ödəyir:** "Bizim jurnalistlərə hörmətimiz var. Ancaq bu cür yanlış məlumatlara münasibət bildirməyi doğru saymırıq. İqtisad Universiteti dövlət universiteti olsa da, bir neçə ildir ki, fərdi maliyyələşməyə keçirilib. Dövlət bizə ancaq dövlət hesabına oxuyan tələbələrin təhsil haqqını ödəyir. Başqa heç nə. Təmir-tikinti işləri isə indi də, gələcəkdə də bizim öz hesabımıza aparılacaq".

❑ Nərgiz LİFTİYEVA

# Bakıda məktəbli qızın intiharının şok təfərrüatı

## İddia: "Ögey atası döyürmüş..."

**Pirallahı Rayon Prokurorluğundan APA-ya verilən məlumata görə, hadisə rayonun Gürgən qəsəbəsində qeydə alınıb. Qəsəbə sakini, 14 yaşlı Səbinə Əhmədli yaşadığı evdə özünü asıb. Onun özünə qəsd etməsinin səbəbləri məlum deyil.**



Məlumata görə, S.Əhmədli orta məktəb şagirdidir.

Gürgan qəsəbəsində yerləşən 235 saylı orta məktəbin direktoru Tahir Süleymanov azvision.az-a bildirib ki, Səbinə Əhmədli məktəbin ən nümunəvi şagirdlərindən biri olub: "Səbinə nümunəvi şagird idi. Sinif yoldaşları, müəllimləri onu çox istəyirdilər. Bütün qiymətləri "beş" idi. Cəmi iki fəndən dörd almışdı. Çox intizamlı şagird idi. Onun ölüm xəbərini eşidəndə çox təəssüfləndik".

Direktor 14 yaşlı S.Əhmədlinin hansı səbəbdən canına qıyması haqda məlumata malik olmadığını deyib.

**Yaxınlarının bildirdiyinə görə isə Səbinənin atası dünyasını dəyişəndən sonra anası Mehriban xanım ikinci dəfə ailə həyatı qurub:** "Səbinə onun birinci həyat yoldaşından olan qızıdır. Mehribanın ikinci ailəsindən 3 qızı var. Səbinə anası ilə birlikdə yaşayırdı. Onların ailəsində tez-tez problemlər olurdu".

**Qohumlarının sözlərinə görə, 14 yaşlı Səbinə ilə ögey atasının münasibətləri yaxşı olmayıb:** "Səbinə ailədə özünü ögey kimi hiss edirdi. Ögey atası digər uşaqlarla Səbinə arasında ayrı-seçkilik edirmiş. O bir neçə dəfə Səbinəni döyüb. Səbəbsiz yerə heç kim canına qıymaz".

Qeyd edək ki, faktla bağlı Pirallahı Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb, istintaq gedir.

YENİ MÜSAVAT
N 126 (6447) 10 iyun 2016



# İnsanları yığışdırmaq lazımdır

Zamin HACI
zaminhaci@gmail.com

**Deyir küçə itləri ilə oynamaq uşaqlara təhlükəlidir. Zaqatalada bir qadını quduz küçə iti dişləyibmiş, qadın vaxtında müalicə almadığı üçün ölübdür. Buna görə küçə heyvanları gərək vaxtında vaksinasiya olsun, yığışdırılsın. Hətta ali təhsilli, universitetdə dərs deyən həkimdən münasibət öyrənilir, o da deyir ya küçə itləri məhv edilməlidir, ya da şəhərdən qırağa çıxarılmalıdır.**

Əziz dostlar, son illərdə quduz itin qurbanı olan həmin qadından başqa neçə nəfər qurban tanıyırsınız? Mənim yadıma düşmür. Ancaq istəsəniz xəbər lentlərində hər gün bir-birini doğrayan, qətlə yetirən, amansızlıq, vəhşilik törədən vətəndaşlarımız haqda oxuya bilərsiniz. Səbəblər də o qədər mənasızdır ki, hətta quduz itin insanı dişləmək "səbəbləri" bunun yanında toya getməlidir. Biri "kənddə adına söz çıxdığı" üçün 3 uşaq anası bacısını uşaqların gözü qabağında öldürür, başqası bacısının əlindən tutan dostunu bıçaqlayır. Mən o ölən qadın haqda xəbərin videosuna baxdım, deyəsən, Samuxda çəkilmişdi. Hadisə törənən ev miskinliyin, kasıbçılığın dibi idi, divarları da palçıqdan yoğurulma kərpiclərdən hörülmüşdü. İndi bu qardaş bacısının o cür miskin şəraitdə yaşamasına dözürdü, ancaq birdən "qeyrətə" gəlib?

Sözümün canı odur ki, belə quduz insanların vaksinasiya edilmədiyi, küçələrdə süləndiyi şəraitdə bədbəxt küçə itlərini gözümçıxdıya salmaq mənasızdır. Azərbaycan dövlətində insanın insana verdiyi zülm, heyvanların insanlara qarşı pis münasibətinə nisbətdə fantastik böyükdür. Bəs o zaman niyə itin-pişiyin, ilanın-çaqqalın üstünə düşürük?

Çaqqal dedim yadıma düşdü, deyəsən, Ucarda bir kəndin sakinləri də şikayətlənirdi ki, çaqqallar gəlib toyuqlarımızı aparır, tüfəngimiz yoxdur, qabağını ala bilmirik. Dəhşətdir. Bir xalqın altından döşəyə, üstündən yorğana qədər çəkib aparırsan, sərvətlərini talayırsan, adi bələdiyyə seçməyə imkan vermirsən, o isə çaqqalın apardığı iki yoluq toyuğun dərdini çəkir... Kəndin adı da ibrətamiz idi: Şahlıq kəndi. Bunlarda hər cür çaqqala artıq öyrəncəlik yaranmalı idi, niyə mızıldanırlar, anlamıram. Çaqqal çavuş, qurd ulavuş! İlan qamçı, tısbağa çanaq, biz ona qonaq! Uşaq vaxtı belə hikmətləri yaxşı öyrənmək lazımdır.

Ziyalılarımızdan çox şey asılıdır. Örnək üçün, görkəmli aktyorumuz Cahangir Zeynalov həm iqtidarı tərifləyir, həm də teatr sənətinə diqqətin yoxluğundan, Bakının tarixinin sökülüb məhv edilməsindən gileylənir. Qalırsan məəttəl ki, bəs bu pis işləri eləyən kimdir, marsiançiklər gəlib Abbas Mirzə Şərifzadənin yaşadığı binanı uçurub qaçıblar? Yoxsa teatr xadimlərimizə yaltaqlıq edəndə beş-altı aylıq təqaüd kəsən, qalan vaxtlarda isə ac qoyan Almaniya bundestaqıdır, Polşa seymidir, canım sənə desin, Monqolustan xuralıdır? Üstəlik, belə yaxşı hökumətdirsə, niyə 20 ildir gedib Türkiyədə işləyirsiniz, gəlin burda işləyin, bilik və bacarıqlarınızı öz aktyorlarımıza öyrədin.

Həmin intervüsündə Cahangir bəy kino sahəsinə də toxunmuşdu, deyir yaxşı olar hökumət Azərbaycan xalqının mənliyini, xarakterini anladan kinoların çəkilməsinə vəsait ayırsın, diqqət göstərsin. Açığı, bu yerdə Cahangir bəy məşhur personajı Salman bəy kimi danışıb, inciməsin. Biz axı bu hakimiyyətin "milli dəyərlərimizi" kino dilində necə əks etdirdiyinin şahidiyik, özü də isti-isti. Son iki-üç ildə "Əli və Nino" romanı əsasında filmin çəkilişinə 20 milyon dollardan çox pul ayrıldı, ancaq ortada nə var? Bu ilin yanvarında film Sandens beynəlxalq festivalında nümayiş etdirildi, o vaxtdan səsi çıxmır. Niyəsini bilən yoxdur. Ancaq elə həmin festival vaxtı nüfuzlu kino tənqidçiləri bunun çox uğursuz alındığını qeyd etmişdilər. Yazmışdılar temanı batırıblar, kino əvəzinə 90 dəqiqəlik treyler alınıb, bir-biri ilə əlaqəsi olmayan kadrlar yığınıdır. Montaj və operator işi də pis gündə imiş və sairə.

**Son yarım ayda Azərbaycan və Çeçenistan arasında qarışıqlı əlaqələrin möhkəmləndirilməsi yönündə ciddi addımlar atılır. Mayın 24-də Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin Çeçenistana səfəri, dövlət başçısı Ramazan Kadırovla görüşməsi və iyunun 8-də Kadırovun şəxsi nümayəndəsi Adam Delimxanovun Bakıya gəlişi, prezident İlham Əliyevlə görüşü dediklərimizi təsdiq edir.**



# Kadırovun Bakıya marağı niyə artıb-biznesmi, yoxsa...

## Son günlərdə hər iki ölkə arasında ciddi yaxınlaşma müşahidə olunur; **politoloq: "Çeçenistanda müəyyən qədər neft yataqları var"**

Maraqlıdır, Çeçenistanın Azərbaycan üçün son günlərdə əhəmiyyətinin artmasına səbəb nədir?

Müstəqil ekspertlərin bu yöndə bəzi fikirləri var. Onlar hesab edirlər ki, ölkəmizdəki iqtisadi böhranın fonunda iqtidar çeçen investisiyasının Azərbaycana yatırılmasında maraqlı görünür. Ekspertlərin fikirlərini təsdiq edən amillərdən biri də, şayiə olsa da, bir müddət öncə çeçen rəhbərinin Azərbaycanda şəxsi biznesinin olması barədə yayılan xəbərlərdir. Bütün bu amillər hər iki ölkəni bir-birinə yaxınlaşdırır. Azərbaycan-çeçen əlaqələrinin güclənməsində Rusiyanın da maraqlı olduğu şübhəsizdir.

**Politoloq Elxan Şahinoğlu bildirdi ki, çeçenlər daim azərbaycanlılarla qardaş xalq olublar:** "Çeçenlərlə münasibətlərimiz dəyişmir. Çətinlikləri varsa, Azərbaycanın da imkanları olarsa, müəyyən köməklik olunur. Ramiz Mehdiyev də Çeçenistanda olanda eyni fikri söyləmişdi ki, çeçenlər bölgədə azərbaycanlılara doğma olan millətdir. Sadəcə, o zaman məndə təəssüf doğuran hal yaranmışdı ki, Ramazan Kadırov Azərbaycan-Ermənistan münasibətləri, ərazi bütövlüyümüzlə bağlı qətiyyətli fikir söyləmədi. Amma hiss olunur ki, Kadırov ölkəmizlə münasibətləri genişləndirmək istəyir. Təəssüf ki, söz, vədlərlə bunlar olmur. Məsələn, Dağıstan rəhbəri Azərbaycana gəldi və investisiyalarımızda maraqlı olduqlarını bildirdi. Amma hazırda sərhəddə Azərbaycanın kənd təsərrüfatı malları ilişib, məhsullar zay olur, heç kim izah edə bilmir ki, niyə bu mallar Rusiya ərazisinə daxil ola bilmir. Eləcə də Çeçenistan. Əgər Azərbaycanla əlaqələri genişləndirmək istəyirsə, bu məsələlərə diqqət yetirməlidir. Sərhəddəki maneələr aradan qaldırılmalı, bürokratik əngəllərə son qoyulmalıdır. Azərbaycanın marağı olarsa, Çeçenistana yatırım qoymaq mümkündür. Sadəcə, ora qoyulan yatırımların bizim üçün nə dərəcədə əhəmiyyətli olması araşdırılmalıdır. Gəlir imkanları olacaqsa, əlbəttə, qardaş millətin ərazisinə yatırım qoymaq mümkündür. Kadırovun Putinin ən yaxın adamlarından olduğu bəllidir. Rusiyada Kadırova böyük önəm verilir. Açıq demək lazımdır ki, o olmasaydı, Çeçenistanda bugünkü sabitlik olmazdı. Güc hesabına o sabitliyi yaratdı. Hazırda Çeçenistan Şimali Qafqazın bəlkə də ən sabit ölkəsinə çevrilib. Azərbaycan Kadırovla yaxın əlaqələr qurmaqla, sanki Rusiyanın da istəyini yerinə yetirmiş olur. Çeçenistanın Azərbaycanla yaxın əlaqələrinin olmasında Putin də maraqlıdır. Burada Qarabağla bağlı da müəyyən məqamlar ola bilər. Çünki Azərbaycan hakimiyyətinin hazırda əsas istəyi odur ki, Rusiya Ermənistana təzyiq etsin və proseslər sürətlənsin. Bu yolla Dağlıq Qarabağ ətrafı rayonların boşaldılması prosesi sürətlənə bilər. Azərbaycanın Rusiya ilə əlaqələri məlumdur. Amma Şimali Qafqazla əlaqələr qurmaqla, əslinə qalsa, Putinə mesaj verilir ki, biz də bu bölgələrin inkişafında dəstəkçi ola bilərik, ortaq əməkdaşlıq yaradarıq. Bununla Rusiyaya Qarabağ məsələsində fəallıq etmək üçün təzyiq imkanlarımız yaranır. Əgər Rusiya bunun müqabilində heç bir hərəkət etməzsə, o zaman Azərbaycanın Şimali Qafqaz ölkələri ilə əməkdaşlığı da alınmayacaq".

**Politoloq iqtisadi və siyasi zəmində Çeçenistanla əlaqələrin Azərbaycana xeyir verə biləcəyini də vurğuladı:** "Çeçenistanda müəyyən qədər neft yataqları var. SOCAR-ın orada fəaliyyəti ola bilər. İqtisadi və siyasi zəmində də müsbət təsirləri ola bilər. Çeçenistan üzərindən Rusiyaya təsir imkanlarımız sadiyyatımızda böhran yaşanır, amma əlavə resursların mız var. Enerji resursları ilə bağlı Çeçenistanın təklifləri varsa, SOCAR buna maraq göstərə bilər".

**Elxan bəy bu proseslərdə Rusiyanın maraqlı olmasına da toxundu:** "Rusiya istəyir ki, Azərbaycan kasıb Rusiya bölgələrinə yatırım qoysun. Çünki Rusiyanın iqtisadi imkanları getdikcə məhdudlaşır. Bu baxımdan çalışır ki, Azərbaycanı özünə bağlasın. Federasiyalarla sıx əlaqələr qurmaqla şimal qonşumuzla əlaqələrimiz artır. Bundan əlavə, Rusiya Azərbaycanı öz orbitində saxlamağa çalışır və bu yolla iqtisadi əməkdaşlığın onlarla aparılmasında maraqlıdır. Azərbaycanın NATO-ya üzvlüyünün və Avropa Birliyi ilə əlaqələrin Rusiyadan istiqamət almasına çalışır. Amma yaradılan bu əlaqələr sərhəddəki özbaşınalıqlarla bağlı sona çata bilər. Rus hakimiyyətində ikili mövqe var. Bir tərəf Azərbaycanla əlaqələrin yaradılmasında maraqlıdırsa, digər tərəf bunun əleyhinədir".

❑ **Cavanşir ABBASLI**

# PKK Türkiyə hökuməti ilə görüş istəyir



**Türkiyənin baş naziri Binəli Yıldırım sədri olduğu Ədalət və İnkişaf Partiyasının (AKP) baş qərargahında iftar yeməyi zamanı millət vəkillərinə səslənib.**

Musavat.com Türkiyə mediasına istinadən xəbər verir ki, baş nazir çıxışında terror təşkilatından "görüşə bilərik, silahları buraxmaq olar, danışaq" kimi birbaşa və ya bilavasitə xəbərlərin gəldiyini bildirib.

Baş nazir Binəli Yıldırım terror təşkilatının qollarından da bu ismarışların onlara çatdırıldığını söyləyib.

"Danışacaq heç bir şey yoxdur" deyə söyləyən baş nazir əlavə edib: "Danışacaq tək şey bayrağımızdır. O bayrağın rəngi şəhidlərimizin qanı, hilalı (aypara-red.) müstəqilliyimizin simvolu, ulduzu şəhidlərimizin göy üzündə parlayan ulduzudur. Bunlarla bağlı danışacaqsaq, danışaq. Yoxsa məmləkəti, milləti terrorla, qorxu ilə sarsıdacağınızı düşünərsəniz, bacara bilməyəcəksiniz".

Binəli Yıldırım PKK terror təşkilatına daxildə və xaricdə dəstək verən güclərin olduğunu, günü gəlincə türk millətinin həmin güclərdən hesab soracağını da söyləyib.

YENİ MÜSAVAT
N 126 (6447) 10 iyun 2016

# Rusiya bölgəyə yönəlik siyasətinə təzədən baxır

**Ötən ilin 24 noyabrından pozulan Rusiya-Türkiyə münasibətləri maraqlı dönəmə daxil olub. Bu dönəmin əsas özəlliyi odur ki, tərəflər heç vaxt olmadığı qədər bu münasibətləri qaydaya salmağa zərurət hiss eləməyə başlayıb. Belə bir qənaətə gəlmək üçün ən qiymətli detal son vaxtlar tərəflərin leksikonunda barış notlarının xeyli artmasıdır. Onlardan ən sonuncuları barədə.**




# Kreml Bakının ağır seçimini asanlaşdırır - Azərbaycan ikiqat uduşda

## Putinin "Türkiyəni dəstəkləyirik" ismarışı və Ankaraya son barışıq reveranslarının pərdəarxası; iki qardaş ölkənin yəhudi dövləti ilə ittifaqına Moskvanın isti yanaşmasının səbəbi...

Srağagün Rusiya prezidenti Vladimir Putin Moskvada İsrail baş naziri Binyamin Netanyahu ilə görüşdən sonra keçirilən mətbuat konfransında Türkiyə-İsrail əlaqələri ilə bağlı ilk dəfə öz mövqeyini ortaya qoyub. Ankara-Tel-Əviv münasibətlərindən danışan V.Putin iki ölkə arasındakı əlaqələrin düzəlməsini dəstəklədiyini, aparılan danışıqları müsbət qiymətləndirdiyini bildirib.

Ola bilsin bu açıqlama ilə Putin ən əvvəl preventiv bir addım atmaq istəyib. Ayrı sözlə, tezliklə İsrail-Türkiyə tərəfdaşlığının bərpa olacağını bilib də, bu tərəfdaşlığın Rusiya maraqlarına qarşı olmaması üçün indidən xoşməramlı bir gediş edib. Axı hər necə olmasa Türkiyə ilə yəhudi dövlətinin müttəfiqliyi Moskvanın bölgədəki manevr imkanlarını daraldacaq. Putin isə ölkəsinin belə bir ittifaqa düşmən kəsilməsinin bədəlini yaxşı bilir. Həm də o səbəbə ki, İsrail Türkiyə üçün indi həm də alternativ qaz mənbəyi qismində görülür. O üzdən mesaj göndərir ki, əslində Rusiya da sizinlədir...

Məlumdur ki, Türkiyə-İsrail münasibətləri 2010-cu ildə 9 Türkiyə vətəndaşının öldürülməsi ilə nəticələnən "Mavi Mərmərə" olayına görə kəskin pisləşmişdi. Lakin rəsmi Tel-Əviv Ankaranın əsas şərtlərini yerinə yetirdikdən, o cümlədən üzr istəyib təzminat öhdəliyi götürdükdən sonra münasibətlərdəki böhran xeyli dərəcədə arxada qalxıb. Hazırda münasibətlərin tam həcmdə bərpası və səfirlərin qayıtması üçün Avropada tərəflər arasında son raund danışıqlar aparılır. Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu da bir az öncə İsraillə münasibətlərin normallaşması üçün aparılan danışıqların sona yaxınlaşdığını bildirib.

***

Mətbuat konfransında Türkiyə ilə bağlı daha bir önəmli detal diqqət çəkib. Kreml başçısı deyib ki, Rusiya "Cənub axını" və "Türk axını" layihələrindən qəti olaraq imtina etməyib, sadəcə olaraq, ona Avropa Komissiyasının aydın mövqeyi gərəkdir. "Qara dənizin dibi ilə qaz ixrac marşrutlarına gəlincə, Türkiyə ilə bağlı məlum siyasi çətinliklər var. Lakin biz heç bir layihədən - nə "Cənub axını", nə də ki "Türk axını" layihələrindən qəti olaraq imtina etmirik. Bizə, sadəcə, Avropa Komissiyasının aydın mövqeyi gərəkdir - aydın, anlaşılan, tam başa düşülən mövqe. Lakin qeyd olunan layihələrin heç biri ilə bağlı bunu, hələ ki görmürük", - deyə Kreml başçısı vurğulayıb.

Yada salaq ki, Rusiya 2014-cü ilin dekabrında Bolqarıstan, Serbiya və Macarıstan ərazisindən keçəcək "Cənub axını" qaz borusu layihəsindən imtina etdiyini bəyan edib. "Türk axını" layihəsi isə Moskva-Ankara münasibətlərinin soyuması səbəbindən dondurulub. Lakin belə görünür, indi artıq daşları yığmaq zamanıdır...

***

Az öncə Afinada səfərdə olarkən V.Putin ilk dəfə olaraq rəsmi Ankaraya münasibətdə sərt leksikondan imtina edərək Türkiyəyə barışıq mesajları göndərmişdi. O, Rusiyanın Türkiyə ilə münasibətləri qaydaya salmaq istədiyini bəyan eləmiş, ancaq bundan ötrü Türkiyə tərəfdən "müəyyən addımların" atılmasının gərəkən olduğunu dilə gətirmişdi.

Bunun ardınca Türkiyənin yeni baş naziri Binəli Yıldırım həm Rusiya, həm də İsraillə münasibətlərin qaydaya salınması yönündə addımlar atılacağını söylədi. Eyni zamanda prezident Rəcəb Tayyib Ərdoğan ilk dəfə olaraq Türkiyə-İsrail münasibətlərin normallaşması zərurətindən söz açaraq, bu münasibətlərin düzəlməsinin üzrə olduğunu, proseslərin bu yöndə getdiyini etiraf elədi. Vurulan "Su 24" rus təyyarəsi ilə bağlı isə bəyan elədi ki, Türkiyə təyyarənin Rusiyaya məxsus olduğundan öncədən xəbərsiz olub. Yəni bir növ təyyarə olayını təsadüfə bağlayıb, nəinki Rusiyanın iddia elədiyi kimi, onun məqsədli şəkildə vurulduğunu deyib.

Bunun özü də Ankaranın Moskvaya qarşı yumşaq ritorika seçdiyinin, münasibətlərin bərpasında maraqlı olduğunun təzahürü hesab oluna bilər. Nəhayət, bir neçə gün öncə xəbər yayıldı ki, rus pilotu vuran "boz qurd"çu Alpaslan Çelik 8 il azadlıqdan məhrum edilə bilər. Doğrudur, Çelik "Su 24" insidentinə görə yox, qanunsuz silah məsələsinə görə ittiham olunur, ancaq onun mühakiməsinin özü də Moskvaya qarşı barışıq jestlərindən sayıla bilər.

***

Rusiya-Türkiyə münasibətlərinin normal axara düşməsi, şübhəsiz ki, Azərbaycanın da, regionun da mənafeyinə uyğundur. Sirr deyil ki, rəsmi Bakı neçə vaxtdır bundan ötrü öz vasitəçilik missiyasını təklif edir. Ən önəmlisi, Rusiya dövlət rəhbərinin İsrail-Türkiyə münasibətlərinin normallaşmasına isti yanaşması Kremlin elə Azərbaycan-İsrail əlaqələrinin də əleyhinə olmadığı anlamına gəlir.

Deməli, Bakı üçün ikiqat "siyasi uduş"dan danışmaq olar. Halbuki İsrail silah bazarında Rusiyaya rəqibdir, o cümlədən Azərbaycanla silah ticarətində bu iki dövləti tərəfdaş adlandırmaq mümkünsüzdür. Bu xüsusda Putinin son mesaj və açıqlamaları rəsmi Bakının İsrail və qardaş Türkiyə ilə güclü əlaqələrindən dolayı Moskva qarşısında qəliz durumunu xeyli yüngülləşdirir, onun strateji seçim yükünü asanlaşdırır.

❑ **Siyasət şöbəsi**

# Nazarbayevin kreslosunu "silkələyən əllər"

## Ekspert: "Rusiyanın Qazaxıstanda baş verənlərdə əli var"

**Qazaxıstanda son günlər baş verənlər dünyanın diqqət mərkəzindədir. Aktobe şəhərində törədilən terror aktı nəticəsində hərbi qulluqçuların və mülki şəxslərin həlak olması ilə əlaqədar iyunun 9-da Qazaxıstanda matəm elan olunub.**

Ekspertlər hesab edirlər ki, hələ Ukrayna hadisələri zamanı, bu proseslərdən sonra əsas hədəf kimi Qazaxıstan göstərilirdi. Xüsusən Qərb və Ukrayna ekspertləri buna daha çox işarə edirdilər. Əsas səbəb isə Nazarbayevin siyasəti idi. Bir məqamı da xüsusi vurğulayaq ki, Nazarbayev Rusiyanın Ukrayna siyasətini heç zaman dəstəkləməyib. Hesab edilir ki, Qazaxıstan daxilində baş verən etirazların səbəbkarı Rusiyadır. Son olaylara gəlincə isə Aktobe hadisələri baş verdikdən sonra Rusiya mətbuatında bunu vəhabilərin etməsi ilə bağlı xəbərlər yayıldı. Lakin ekspertlər hesab edirlər ki, Qazaxıstanda dini vəziyyət o qədər də kəskin deyil. Eyni zamanda hadisənin ölkənin şimalında baş verməsi də müəyyən suallar doğurur. Çünki Qazaxıstanda adətən dindarlar üçün əlverişli yer cənub zonası sayılır. Ən maraqlı tərəf isə Aktobe şəhərinin ərazi baxımdan Rusiyaya yaxın yerləşməsi və əhalisinin 25 faizinin ruslar olmasıdır.



**Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan politoloq Natiq Miri bildirib ki, Qazaxıstanda Ukrayna hadisələri təkrar olunur:** "Söhbət ondan gedir ki, Krım işğal olunmamışdan öncə, orada da Ukraynanın hərbi bazalarına, silah anbarlarına heç bir işarət əlaməti olmayan "yaşıl adamcıqlar"ın hücumu müşahidə olunurdu. Bu gün Aktobedə müşahidə olunan hadisə də bilavasitə budur. Başqa tərəfdən, nəzərə almaq lazımdır ki, Qazaxıstanın xüsusi xidmət orqanları nədənsə öldürülən və tutulan şəxslərlə bağlı informasiya vermirlər. Bu hadisələr bir növ qapalı informasiya kimi saxlanılır. Bu da müəyyən şübhələr yaradır ki, Qazaxıstan Rusiya barəsində hansısa ittihamedici fikirlərdən çəkinir. Başqa tərəfdən, bu ərəfədə baş verən digər siyasi hadisələri də diqqətdən qaçırmaq lazım deyil. Kremlin yaratdığı strateji araşdırmalar mərkəzinin eksperti Oleq Nemenskinin bir açıqlaması var. Həmin açıqlamada bildirilir ki, rusların yaşadığı bütün ərazilərdə, onların öz müqəddəratını təyin etmək hüququnu Rusiya dövləti ciddi surətdə müdafiə edəcək. Bu, sıradan və təsadüfən deyilən söz deyil. Çox maraqlıdır ki, onun bu açıqlamasından sonra Rusiya Federasiya Şurasının sədri Valentina Matviyenko da bu informasiyanı təsdiq edən fikir səsləndirdi. Hesab edirəm ki, bu açıqlamalarla Aktobedə baş verən hadisələr bir-biri ilə bağlıdır".

**Ekspert bildirib ki, Rusiyanın Qazaxıstana hədiyyə olaraq "S-300" zenit raket komplekslərini bağışlamasının da səbəbləri var:** "Bu, onunla əlaqəlidir ki, Rusiya Ermənistanda olduğu kimi Qazaxıstanın da hava məkanını öz nəzarətinə götürmək istəyindədir. Maraqlıdır ki, "S-300" raketlərinin Qazaxıstana verilməsi hadisəsi də Aktobedə törədilən terror hadisələrindən sonra reallaşdı. Hesab edirəm ki, bu, Qazaxıstan hakimiyyətinin terror hadisəsindən sonra Rusiya qarşısında geri çəkilməsi müqabilində baş verdi. Ona görə də düşünürəm ki, Rusiyanın bu məsələlərdə əli var. Qərbin bu proseslə bağlı guya hansısa rəngli inqilablar törətməsinə gəlincə, bu, inandırıcı amil deyil. Açığı, bununla bağlı hansısa əlamətlər də mövcud deyil. Bunlar, sadəcə olaraq, diqqətləri Rusiyadan azdırmağa yönəlik dezinformasiyalardır".

**Ekspert həmçinin Qazaxıstanın Avrasiya İttifaqı siyasətindəki məsələlərə də toxunub:**

"Qazaxıstan götürdüyü öhdəliklərə rəğmən, müstəqil siyasət yürüdür. Söhbət Qazaxıstanın dövlət maraqlarından gedir. Ona görə də Qazaxıstan Avrasiya İttifaqına paralel olaraq, Qərb dünyası, eyni zamanda Asiyada Çin və digər ölkələrlə çox ciddi ticari əməkdaşlığını da davam etdirir. Bu məsələlər də mövcud proseslərin baş verməsi üçün səbəblərdən biridir".

❑ **Əli RAİS**

# “Samsung” Azərbaycandan niyə getdi...

**Xəbər verdiyimiz kimi, “Samsung Electronics Central Eurasia” Məhdud Məsuliyyətli Ortaqlığın Azərbaycandakı nümayəndəliyi ləğv olunub. Bu barədə mətbuata Vergilər Nazirliyindən məlumat daxil olub. Bununla bağlı qərar iyunun 3-də qəbul olunub.**

## **Rəşad Həsənov:** “Bu il bir çox brend şirkətlər ölkəni tərk edəcək”




Bəs görəsən, Azərbaycandan kifayət qədər tələbat formalaşdıran “Samsung”un ölkəmizdəki nümayəndəliyinin ləğv olunmasının səbəbi nədir? Əgər bu, ölkədə yaşanan iqtisadi böhranla əlaqədardırsa, başqa hansı iri şirkətlərin Azərbaycan nümayəndəliyi ləğv oluna bilər? Bu proses qiymətlərə necə təsir edəcək?

**“Yeni Müsavat”ın suallarını cavablandıran iqtisadçı ekspert Rəşad Həsənov** bildirdi ki, şirkət rəhbərliyinin verdiyi bu qərarın arxasında duran başlıca səbəb manatın devalvasiyasından sonra ölkədə yaranan iqtisadi böhran və adekvat olaraq şirkətin gəlirlərinin azalması ilə bağlıdır: “”Samsung" şirkətinin Azərbaycan nümayəndəliyinin ölkəni tərk etməsinin səbəblərini təxmin etmək çətin deyil. Böyük ehtimalla, 2015-ci ildə baş verən devalvasiyalardan sonra bu məhsulların da qiymətlərində ciddi artımlar baş verdi və onların digər markalarla rəqabət aparmaq qabiliyyəti aşağı düşdü. Eyni zamanda əhalinin istehlak qabiliyyətinin azalması nəticəsində məhsulların satışı və şirkətin mövcud dövriyyəsi Azərbaycandakı nümayəndəliyin saxlanılması xərclərini ödəmək gücünü itirdi. Böyük ehtimalla, bu səbəbdən belə bir qərar verdilər. Onlar da düşünürlər ki, ehtiyac olduğu qədər Azərbaycana “Samsung” məhsullarını gətirəcəklər, ayrıca nümayəndəliyin saxlanılmasına və əlavə vəsaitlərin xərclənməsin ehtiyac yoxdur. Bu nümayəndəliyin bağlanması “Samsung” məhsullarının Azərbaycana gətirilməsində və satışında heç bir məhdudiyyət yaratmayacaq. Şirkət hesab edib ki, nümayəndəliyin bağlanması nəticəsində itirilən gəlirlər onun saxlanması xərclərindən çox olmayacaq".

**R.Həsənovun sözlərinə görə, bir çox brend məhsulların yerli nümayəndəliklərinin Azərbaycanı tərk etməsi prosesi bu ilin əvvəlindən başlayıb:** “İndi də proses davam edir. Çünki əvvəllər böyük neft pulları fonunda ölkədə ciddi istehlak qabiliyyəti formalaşmışdı. Hazırda isə əks proses gedir. Ona görə də brend şirkətlərin Azərbaycanı tərk etməsi təbii, eyni zamanda da məyusedici haldır. Çünki bu şirkətlər ölkəni tərk edirsə, deməli, onların mütəxəssisləri qarşıdakı illərdə ölkədə iqtisadi vəziyyətin normala dönəcəyini proqnozlaşdırmırlar”.

**İqtisadçı ekspert vurğuladı ki, sonrakı dövrdə də biz qeyri-ərzaq sektorunda fəaliyyət göstərən xarici şirkətlərin Azərbaycandakı nümayəndəliklərinin ləğv edilməsi hallarının şahidi olacağıq:** “Əsasən qeyri-ərzaq təyinatlı şirkətlərin Azərbaycanı tərk etməsi tendensiyası hazırda aktualdır. Çünki əhalinin alıcılıq qabiliyyətinin azalması fonunda bu kateqoriyalı məhsullara tələbat azalıb. Hazırda Azərbaycan əhalisinin alıcılıq qabiliyyəti orta və aşağı səviyyəli məhsulların qiymətlərinə münasibdir. Bu da brend şirkətlərin Azərbaycanı tərk etməsinə gətirib çıxaracaq”.

❑ Nərgiz LİFTİYEVA




# Azərbaycanda vizaların qiyməti 50 dollardan 20 dollara endirilir

**Azərbaycana birdəfəlik giriş və ölkədən tranzit marşrutu üçün tələb olunan vizalara görə ödənilən dövlət rüsumu endirilir, bununla bağlı bir sıra tələblər ləğv edilərək qaydalarda dəyişikliklər edilir.**

Milli Məclisdən verilən məlumata görə, Azərbaycan prezidentinin təqdimatı ilə bununla bağlı “Dövlət rüsumu haqqında” Qanuna dəyişikliklər təklif edilir.

Qanunun 16.1.6-cı maddəsinə təklif edilən dəyişikliyə əsasən, “birdəfəlik giriş vizalarının rəsmiləşdirilməsi üçün” nəzərdə tutulan 50 ABŞ dolları dövlət rüsumu 20 ABŞ dollarına endirilir. Eyni zamanda maddəyə “tranzit vizalarının rəsmiləşdirilməsi üçün” ifadəsi də əlavə edilərək bunun üçün də 20 ABŞ dolları dövlət rüsumu müəyyənləşdirilir.

Bununla əlaqədar olaraq qanunun 16.1.8 (Turizm vizalarının və şəxsi kontraktla təhsil alan tələbələrin vizalarının rəsmiləşdirilməsi üçün 20 dollar), 16.1.9 (tranzit vizalarının rəsmiləşdirilməsi üçün 20 dollar), 16.1.9.1 (birdəfəlik tranzit vizası 40 dollar) və 16.1.9.2 (ikidəfəlik tranzit vizası 40 dollar) maddələri ləğv edilir.

Burada göstərilən tələblər maddə 16.1.6-nın yeni tələblərində cəmləşdirilir.

Maddəyə əlavə edilən “Qeyd” hissəsində isə izah edilir ki, “Dəyişikliklərin məqsədi Azərbaycan Respublikasına əcnəbilərin turizm məqsədi üçün gəlməsini asanlaşdırmaq, ölkəmizin ərazisini tranzit daşımaları üçün əlverişli etmək və xarici ölkə vətəndaşlarının tranzit nöqtəsi kimi seçməkdə marağını gücləndirməkdir”.

Layihə Milli Məclisin xüsusi növbədənkənar sessiyasının iyunun 14-də keçiriləcək iclasında müzakirəyə çıxarılacaq. (APA)

# Vəd edilən tikinti bumunu gecikdirən səbəblər...

## “İnşaat sektorunun güclənməsi üçün şirkətlərin maliyyə mənbələrinin, əhalinin isə alıcılıq qabiliyyətinin yüksək olması şərtdir”



**İlin əvvəlində Bakıda növbəti tikinti bumunun yaranacağı vədi verilsə də, ötən 5 ayda tikinti sektorunda heç bir canlanma, irəliləyiş qeydə alınmayıb.**

Ölkə başçısı da bir neçə ay öncə yeni tikinti layihələrinin həyata keçirilməsi, bunun üçün sahibkarlara güzəştlərin tətbiq olunması, ipoteka şərtlərinə dəyişiklik edilməsi ilə bağlı mesajlar vermişdi. Həmçinin sosial evlərin tikilməsi ilə bağlı da qərar verilmişdi.

Fövqəladə hallar naziri Kəmaləddin Heydərov da sahibkarlarla görüşündə tikinti ilə bağlı süni əngəllərin aradan qaldırılması və köhnə, qəzalı binaların sökülərək yerində yenilərinin tikilməsi barədə təkliflərlə çıxış etmişdi. Lakin artıq bu söhbətin üzərindən bir neçə ay keçib və paytaxtda söküntü prosesi davam etsə də, iri tikinti layihələrinə rast gəlinmir. Halbuki bu sektorun canlanmasının ölkə iqtisadiyyatına mühüm faydaları ola bilərdi. Söhbət həm tikinti sektorunda iqtisadi canlanmanın yaranmasından, həm də yeni iş yerlərinin açılmasından gedir. Bəs paytaxtda tikinti bumunu gecikdirən səbəblər nələrdir?

**Daşınmaz əmlak məsələləri üzrə ekspert Nüsrət İbrahimov “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, tikinti bumunun yaranması üçün bir çox şərtlər var:** “Bunlardan biri bazardan çıxan iş adamlarının geri qayıtmasıdır. Bunun üçün isə onların maliyyə mənbələri təmin olunmalıdır. Maliyyə mənbəyi isə bankların verdiyi kreditlər ola bilər. Həmçinin bazarda tələb formalaşmalıdır ki, insanlar da daşınmaz əmlaka yatırım etsinlər. Tələbin formalaşması üçün banklar işə düşməlidir ki, kredit almaq mümkün olsun. İpoteka şərtlərinə yenidən baxılmalıdır ki, alıcılıq qabiliyyəti artsın. Bunlar bir-birinə bağlı olan məqamlardır və əgər həll olunsa, yəqin ki, ölkədə tikinti bumu yaranmasa da, inşaat sektoru inkişaf edə bilər. Lakin bunun üçün ən azı 2-3 il vaxt lazımdır”.

**N.İbrahimovun sözlərinə görə, tikinti tempinin artması iqtisadiyyatın digər sahələrini də öz bərabərində canlandırır. Çünki bütün sahələr dolayısı ilə bir-biri ilə bağlıdır. Tikintinin həcmi insanların ödəmə qabiliyyəti ilə bağlıdır:** “Adətən iqtisadiyyatda belədir ki, orta hesabla təxminən 8 il artıma gedir, sonra 3-5 il tənəzzülə gedir. Daha sonra yenidən 8-10 il artıma gedir. Bu, təkcə bizdə yox, dünya iqtisadiyyatında da belədir. Biz artıq 2014-cü ilin sonlarından başlayaraq, 2015 və 2016-cı illərdə iqtisadiyyatımızın tənəzzülü dövrünü yaşayırıq. Tənəzzüldən çıxma dövrü yəqin ki, 2018-ci ildən başlayacaq. 2018-ci ildən sonra biz tikinti bumunun yox, tikinti tempinin sürətlənməsinin şahidi olacağıq. Təxmini hesablamalar bunu göstərir. Tikinti elə bir sahədir ki, onu 3-5 aya canlandırmaq olmur”.

**Sosial evlərin tikilməsinə gəlincə, ekspert bildirdi ki, bu haqda qərar varsa, gec-tez icra ediləcək:** “Əgər belə bir struktur yaradılıbsa, gələn ilin büdcəsində bunun üçün əhəmiyyətli dərəcədə vəsait ayrılacaq. Ümumiyyətlə, sosial evlərin tikilməsi üçün vaxt artıq yetişib. Bu il inandırıcı olmasa da, gələn il üçün sosial evlərin tikilməsi qaçılmaz olacaq. Bu sahədə indidən müəyyən işlər aparılır, struktur formalaşır, ərazilər seçilir. Sonra da qalır maliyyənin ayrılması, tenderlərin keçirilməsi, tikinti şirkətləri ilə müqavilələrin bağlanması və şərtlərin müəyyənləşdirilməsi ki, bu evlər kimlərə veriləcək, hansı kateqoriyadan olan insanlara düşəcək. Yəqin ki, o şərtlər də bu il tam olaraq həllini tapacaq”.

❑ Nərgiz LİFTİYEVA